www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4 avqust 2015-ci il Çərşənbə axşamı № 168 (6196) Qiyməti 40 qəpik

## Xəbər

### Bakıda qadın avtobusdan yıxılıb öldü

yazısı səh.14-də

## Gündəm

### Almaniyadan öz obyektiv vasitəçi imicinə ağır zərbə




Dövlətin maliyyələşdirdiyi "Alman dalğası" radiosunun əməkdaşının Qarabağa qanunsuz səfəri və hazırladığı təxribatçı reportaj aranı qatdı; rəsmi Bakıdan sərt reaksiya gəldi

yazısı səh.13-də

### Müxalifətdən "Avrasiya Hərəkatı"na sərt ittihamlar

yazısı səh.8-də

### Evlərin qiymətində artım gözlənilir - mənzil bazarı canlanır...

yazısı səh.10-da

### Anadolu Universiteti ilə bağlı Baş Prokurorluğa məktub göndərilib...

yazısı səh.11-də

### Ekspert Mərkəzi Bankın qanunvericiliyi pozduğunu deyir

yazısı səh.12-də

### Elza Seyidcahan aparıcı ilə dalaşmasından danışdı

yazısı səh.14-də

### "Bulaq" istirahət mərkəzindən aparılan oğlan və qızla bağlı yeni şok gəlişmə

yazısı səh.11-də

### Goranboyda dəhşətli qəza: bir polis öldü, ikisi ağır yaralandı

yazısı səh.14-də

### "Qarabağ"a qazon problemi

yazısı səh.15-də

### Ötən 7 ayın iqtisadi yekunları - ekspert təhlili

yazısı səh.12-də

### "A.M.A.Y. Abdulla"nın məhkəməsi yekunlaşır

yazısı səh.2-də

## Tural Mustafayevdən sensasion açıqlamalar...

# XƏDİCƏ İSMAYILOVANIN İŞİNDƏ ŞOK GƏLİŞMƏ - "GİZLİ KAMERA..."

**Tural Mustafayev:** "Bəzi şahidlər gizli videolarının yayılacağı ilə şantaj olunduqları üçün Xədicə İsmayılovanın əleyhinə ifadə veriblər"; "Mənə videoları göstərib dedilər ki, bunlar yayılacaq..."; "Evimdə gizli görüntülər çəkilib; bunlar 6 nəfərdir"




yazısı səh.6-da

## Putinin Ərdoğana qarşı "at gedişi" və Bakının uduşu

Kreml qaz müharibələrində taktikanı dəyişir; Rusiyanın Türkiyə və Qərbə "Şimal axını" layihəsi ilə yeni təzyiq planının pərdəarxası; TAP-ın yolu daha da açılır, ancaq...

yazısı səh.9-da



### Yanan binaya "ölüm paltarı" Fazil Məmmədovun pulu ilə alınıb

yazısı səh.4-də



*Etibar Əliyev:*

### "Nazirlə müsahibədə Mir Şahin qərəzli görünürdü"

yazısı səh.5-də



### Aysel Əlizadə spiker Oqtay Əsədova qarşı

yazısı səh.2-də

**4 avqust 2015**



# İlham Əliyev Dərbənddəki Azərbaycan teatrının binasının restarvasiyasına 5 milyon manat ayırdı

**Azərbaycan prezidenti İlham Əliyev Dərbənd şəhərində fəaliyyət göstərən Azərbaycan Dövlət Dram Teatrının binasının yenidən qurulması haqqında sərəncam imzalayıb. APA-nın məlumatına görə, hazırda teatrın yerləşdiyi binada şəraitin qənaətbəxş olmadığı, təchizatın müasir tələblərə cavab vermədiyi nəzərə alınaraq teatrın binasının yenidən qurulması və təchizatı məqsədi ilə Prezidentin ehtiyat fondundan Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinə ilkin olaraq 5 milyon manat ayrılıb.**

Maliyyə Nazirliyinə müvafiq məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

Qeyd edək ki, Dərbənd şəhərində XIX əsrin sonu - XX əsrin əvvəllərində həvəskar dərnək kimi fəaliyyətə başlayan Azərbaycan Dram Teatrı 1904-cü ildə rəsmi status, 1934-cü ildə dövlət teatrı statusu alıb. Azərbaycanın görkəmli mədəniyyət xadimlərindən Mirzə Fətəli Axundzadənin, Əbdürrəhim bəy Haqverdiyevin, Üzeyir bəy Hacıbəylinin, Cəfər Cabbarlının, Səməd Vurğunun və digər sənətkarların əsərlərinin teatrın səhnəsində işıq üzü görməsi ona müxtəlif regionlarda çoxsaylı pərəstişkarlar qazandırıb.

# Rusiyada iki xüsusi əməliyyat: 14 ölü

**Rusiya hüquq-mühafizə orqanları beynəlxalq terrorçuluqda şübhəli bilinən 14 nəfəri öldürüblər. 36 saat ərzində iki əməliyyat keçirilib. Bu barədə Rusiyanın Terrorla Mübarizə Komitəsi avqustun 3-də məlumat yayıb.**

Bildirilir ki, 6 nəfər Rusiyanın Kabardino-Balkaria regionundakı Nalçik şəhərində, 8 nəfər isə İnquşetiyadakı Sunji kəndində öldürülüb.

"Hüquq-mühafizə orqanlarına beynəlxalq terror təşkilatında iştirakda şübhəli bilinən bir qrup silahlının doqquzmərtəbəli binanın blokunda gizlənməsi barədə məlumat daxil olmuşdu. Terror hücumunun qarşısını almaq və ictimai asayişi pozmamaq üçün Terrorla Mübarizə Komitəsinin regional rəhbəri əməliyyatı avqustun 2-dən 3-nə keçən gecə keçirməyi qərara alıb" - komitənin sözçüsü Andrey Çatski belə deyib.

O əlavə edib ki, bir neçə saatlıq danışıqlara baxmayaraq silahlılar təslim olmaqdan imtina ediblər və hüquq-mühafizə əməkdaşlarına atəş açıblar. Bu zaman altı silahlı öldürülüb.

A.Çatski ölənlərin hansı qrupa aid olması haqda heç bir məlumat verməyib və onların şəxsiyyətinin müəyyən olunması üçün əməliyyatın davam etdiyini bildirib.

Sözçü bildirib ki, Sunji meşəsi yaxınlığında Rusiya hüquq-mühafizə orqanlarının öldürdüyü 8 nəfərin İŞİD terror təşkilatının üzvləri olduğu ehtimal edilir.

Hüquq müdafiəçiləri və Kremlin tənqidçiləri isə bəzi iddialar səsləndiriblər. Onların sözlərinə görə, Rusiyanın təhlükəsizlik xidmətinin Şimali Qafqazdakı taktikası göstərir ki, hədəf yalnız silahlı qruplaşmalar deyil, həmçinin yerli əhali arasındakı müxaliflər və narazılardır.

Son illər Şimali Qafqazdan olan silahlılar təkcə öz regionlarında yox, Rusiyanın digər bölgələrində də hücumlar həyata keçirirlər. 2011-ci ildə Moskvada Domodevo aeroportunda olmuş terror hadisəsi də bunlardan biridir.

❑ virtualaz.org

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012)421-10-46; (012)323-55-21; (055)660-60-95;
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74; (055) 660-07-05

Az-Nar-Turizm
Aviabiletlər və turlar
Tel: (012) 408-44-43; (077) 355 05-85

# Aysel Əlizadə spiker Oqtay Əsədova qarşı

## Xanım yazar "125-lər" Siyasi Klubundan deputatlığa namizəd oldu: "Fədakarlıq edirəm..."

**Bu il noyabrın 1-də Azərbaycanda keçiriləcək parlament seçkilərində bütün dairələri əhatə etmək üçün ictimai xadimlərin təşəbbüsü ilə "125-lər" Siyasi Klubu təsis edilib. Artıq bir çox dairələr üzrə namizədlərini bəyan edən klub daha bir dairə üzrə öz namizədinin kimliyini açıqlayıb. Klubun təsisçilərindən biri olan yazar Aysel Əlizadə bu il keçiriləcək 5-ci çağırış parlament seçkilərində 8 saylı Binəqədi 1-ci seçki dairəsindən namizəd olacaq.**



Xanım yazar bu informasiyanı musavat.com-a təsdiqləyərək bildirdi ki, o uzun müddətdir yaşadığı və fəal vətəndaş mövqeyinə görə rəğbət qazandığı dairədə şansını sınayacaq: "Millət vəkili kimi daha çox fayda verə biləcəyimi söyləyən israrlı dostların təklifini elə "125-lər" Siyasi Klubuna toplaşanda dəyərləndirmişdim. Tərəddüdlərim vardı. Düşünürdüm ki, siyasət mənə görə vaxtımın çoxunu alacaq bir sahədir. Millət vəkili olmaq ciddi məsələdi, məsuliyyətdir - mənim üçün belədi. Risk etmək istəmirdim. Sözün düzü, bir az da fədakarlıq edib seçkiyə qatılıram deyə bilərəm. Fayda verə biləcək vicdanlı, obyektiv adamların parlamentdə milləti təmsil etməsi önəmlidi. Həmin dairənin hazırda deputatı Milli Məclisin sədri Oqtay Əsədovun olmasına gəldikdə isə məncə, Oqtay bəy bir ağsaqqal kimi yerini gənc kadrlara güzəştə getməkdə maraqlı olmalıdır. Elə bu addımın özü də bir fədakarlıq olardı".

❑ RÖYA



# Ziya Məmmədov oğlunun dostuna yüksək vəzifə verdi

**Nəqliyyat Nazirliyində yeni kadr təyinatı olub. Lent.az-ın məlumatına görə, nəqliyyat naziri Ziya Məmmədovun 3 avqust 2015-ci il tarixli əmri ilə Elnur Nazim oğlu Abdullayev Nəqliyyat Nazirliyi Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi vəzifəsinə təyin edilib.**

Yeni təyinata qədər E. Abdullayev "Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi" MMC-nin baş direktoru vəzifəsində çalışıb.

Musavat.com-un məlumatına görə, E.Abdullayev Ziya Məmmədovun oğlu Anar Məmmədovun dostudur. Onu Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi" MMC-nin baş direktoru vəzifəsinə də bu dostluq sayəsində təyin etmişdilər.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33



# "A.M.A.Y. Abdulla"nın məhkəməsi yekunlaşır

**Avqustun 3-də Bakı Ağır Cinayətlər Məhkəməsində "A.M.A.Y." ticarət mərkəzinin həbsdə olan rəhbəri Abdulla Abdullayev, Heydər Rzayev, Mehman Məmmədxanlı, Elşən Novruzov, Vidadi Qurbanov, Nadejda İlyasovanın barəsində olan cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib. Lent.az-ın məlumatına görə, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə məhkəmə istintaqının başa çatdığı elan edilib. Çıxış etmək üçün söz dövlət ittihamçısına verilib. Prokuror çıxışını hazırlamaq üçün 10 gün vaxt istəyib.**

Məhkəmə prosesi avqustun 18-də davam edəcək.

Qeyd edək ki, Abdulla Abdullayev və digərləri Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilir.

Təqsirləndirilən şəxslərdən yalnız A.Abdullayev barəsində həbs-qətimkan tədbiri seçilib, digər şəxslər isə zamindədir.

A.Abdullayev ötən il aprelin 4-də həbs olunub. Onunla bağlı İqtisadiyyat və Sənaye Nazirliyi yanında Sahibkarlığa Kömək Milli Fondundan daxil olmuş material Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

A.Abdullayevin həbsi ilə bağlı Baş Prokurorluğun mətbuat xidmətinin zamanında yaydığı məlumata görə, ilkin araşdırma zamanı toplanmış sübutlar əsasında Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb.

İstintaq müəyyən edib ki, 2006-2008-ci illərdə "Birlikbank" ASC-nin Müşahidə Şurasının sədri işləmiş Abdulla Abdullayev vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kənd təsərrüfatı, eləcə də digər sahələrin inkişafına yönəldilməsi nəzərdə tutulan ümumilikdə 3 milyon 397 min manat məbləğində vəsaiti təyinatı üzrə istifadə etməyib.

İstintaqın gəldiyi qənaətə görə, vəsaiti ayrı-ayrı hüquqi şəxslərin müvəkkil bank olan "Birlikbank" ASC-də açdırdığı hesablaşma hesablarına köçürülməklə həmin vəsaiti faktiki rəhbəri olduğu "A.M.A.Y." MMC-nin Xətai rayonu ərazisində yerləşən binasının təmir-tikinti işlərinə xərcləyib. Özgənin külli miqdarda əmlakını mənimsəməsində şübhələr üçün ciddi əsaslar olduğundan A.Abdullayevə Cinayət Məcəlləsinin qeyd olunan maddələri üzrə ittiham elan edilib və barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

# Müsavat məhkəmə proseslərini diqqətdə saxlayacaq

**Müsavat Partiyası Divanının növbəti iclası keçirilib. İclasda qərarların icrası və görülən işlər barədə məlumat verilib.**

Divanda Milli Strateji Düşüncə Mərkəzinin təşkilatçılığı ilə "Qarabağ problemi 2015-ci ildə: Azərbaycanın milli maraqları və xarici siyasəti" mövzusunda keçirilən dəyimi masa və bu tədbirdə Müsavat Partiyası üzvlərinin fəal iştirakı təqdir edilib.

Siyasi məhbuslara qarşı aparılan məhkəmə prosesləri barədə məlumat dinlənilib. Bu proseslərin diqqətdə saxlanması barədə tapşırıq verilib.

Divan üzvü Nemət Kərimli Füzuli rayon təşkilatında keçirilən növbədənkənar konfrans, vicdan məhbusları Tofiq Yaqublu və Sirac Kərimli ilə görüşü barədə məlumat verib. Onların hər ikisinin səhhətində ciddi problemlərin olduğunu diqqətə çatdırıb.

Divanda Müsavat Partiyası rəhbərliyinin İsveçrənin milli bayramı münasibətilə təşkil olunan tədbirdə iştirakı barədə məlumat verilib.

Müsavat Partiyası başqanının müavini Elman Fəttah vicdan məhbusu Yadigar Sadıqlı ilə görüşü barədə məlumat verib.

Divan qondarma Dağlıq Qarabağ qurumunun rəhbərinə Rusiya Federasiyasının ali mükafatı - "Pyort ordeni"nin verilməsini pisləyərək, hakimiyyətdən buna rəsmi münasibət bildirməsini tələb edib.

Divanda Avrasiya qurumuna müdafiəsi ilə bağlı siyasi təşkilatların yaranması məsələsi müzakirə edilərək, bu cəhdlərin milli mənafelərimizə zidd olduğu vurğulanıb. Bu prosesin diqqətdə saxlanılması zərurəti qeyd edilib.

Sonda cari məsələrə baxılıb.

# "İtkin rektor"dan xəbər var

**Təhsil Nazirliyi Gəncədə yerləşən Azərbaycan Texnologiya Universitetinin rektoru Akif Süleymanov haqqında yayılan xəbərlərə münasibət bildirib.**

Təhsil Nazirliyinin mətbuat xidmətindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, Azərbaycan Texnologiya Universitetinin rektoru A. Süleymanov xəstəliyi ilə əlaqədar məzuniyyət götürüb.

Nazirlikdən onu da bildiriblər ki, rektor A. Süleymanov cari ilin avqust ayının 6-da əmək fəaliyyətinə başlayacaq.

Qeyd edək ki, Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti 2015-ci ilin birinci yarısında aparılmış maliyyə nəzarəti tədbirlərinin nəticələri barədə iyulun 24-də yaydığı məlumatda bildirib ki, Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən risklərin qiymətləndirilməsinin nəticələrinə əsasən tərtib olunmuş iş planına uyğun olaraq 2015-ci ilin birinci yarısında Azərbaycan Texnologiya Universitetinə dövlət büdcəsindən ayrılan vəsaitlərin təyinatı üzrə xərclənməsi işləri yoxlanılıb. Azərbaycan Texnologiya Universitetində aşkar olunmuş nöqsanların ciddiliyi nəzərə alınaraq həmin nəzarət obyektləri üzrə yoxlama materialları hüquqi qiymət verilməsi üçün aidiyyəti üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilib.

Mətbuatda yayılan xəbərlərdə universitetin tələbələri iddia edirlər ki, onların adına saxta təqaüd kartları açılıb və bu işin üstü açılandan sonra rektor A. Süleymanov ölkədən qaçıb.

YENİ MÜSAVAT
N 168 (6196) 4 avqust 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Rusiya prezidenti Vladimir Putin bu il sentyabrın ortalarında Nyu-Yorka yola düşmək və BMT-nin Baş Məclisinin yubiley sessiyasında çıxış etmək niyyətindədir. ANS-in məlumatına görə, sessiya tarixi hadisələrlə yadda qalacaq. ABŞ, Rusiya və Fransa Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün yaradılan ATƏT-in Minsk Qrupu həmsədrləri çərçivəsində ümumi rəsmi əməkdaşlıq formatına malikdir.**

# "Qarabağda sülhməramlıların yerləşdirilməsi qəliz məsələdir"

## Ekspert Azərbaycanın hansı şərtlərlə buna razılıq verə biləcəyini açıqladı

Onlar Azərbaycan və Ermənistan prezidentləri İlham Əliyevi və Serj Sarkisyanı təsadüfən Nyu-Yorka dəvət etmirlər və dövlət başçılarına orada görüşməyi və razılaşmağı təklif edirlər. Bu səfər baş tutacaqmı, bunu demək çətindir, hərçənd ki, Putin ABŞ-da olacaq, demək, Dağlıq Qarabağ problemi üzrə görüşün və hansısa razılığın əldə edilməsi ehtimalı yüksəkdir. Qarabağ problemində iki əsas məsələ var, hansı ki, indiyədək nə tərəflər, nə də vasitəçilər razılaşa bilmirlər. Bu, neytral zonaya yerləşdiriləcək sülhməramlı qüvvələrin tərkibi və sərhəd məsələsidir.

Görünən odur ki, Rusiya neytral zonaya öz qoşunlarını yerləşdirməyi, Qarabağ və Azərbaycan arasında yeni sərhədləri özü müəyyənləşdirməyi təkid edir. Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik bildirib ki, ABŞ Dağlıq Qarabağ üzrə beynəlxalq sülhməramlıların yaradılması haqqında BMT-nin yeni qətnaməsinin qəbulunda maraqlıdır. Erməni mətbuatı yazır ki, çox ehtimal ki, Ermənistanın müdafiə nazirinin birinci müavini David Tonoyanın ABŞ-a səfəri məhz bununla bağlıdır. O, Nyu-Yorkda BMT-nin sülhməramlı missiyalar üzrə nümayəndəsi ilə görüşüb. Onların Qarabağda BMT sülhməramlılarının ehtimal edilən yerləşdirməsi haqqında danışıb-danışmamaları barədə rəsmi informasiya yoxdur. Amma hadisələrin gedişatı və məntiq onu göstərir ki, görüşdə bu mövzu əsas idi. Göründüyü kimi, Qarabağ probleminin nizama salınması Rusiya və ABŞ arasında yeni əməkdaşlıq mərhələsinin nişanəsi kimi BMT Baş Assambleyasının iclasında imperativ olacaq.

Ehtimal var ki, Azərbaycanın ərazi bütövlüyü əsasında, müəyyən sərhədlər çərçivəsində Dağlıq Qarabağa hansısa status verilsin. Belə olan təqdirdə Ermənistanın Rusiya, yaxud beynəlxalq sülhməramlılar arasında seçim üçün manevr etməyə imkanı qalmayacaq.



Natiq Miri

Rusiyanın və ABŞ-ın sülhməramlıları hansı sərhədlərdə yerləşdirmək barədə Ermənistana verəcəkləri təklifdən çox şey asılı olacaq. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Baş katibi Nikolay Bordyuja və Rusiya Silahlı Qüvvələri Baş Qərargahı rəisinin müavini, general-polkovnik İqor Serqun iyun və iyul aylarında İrəvana səfərləri zamanı yeni sərhədin xəritəsini təqdim ediblər, hansı ki, bu, Ermənistanın maraqlarına tamamilə uyğun deyil. Ona görə də David Tonoyan ABŞ-a gedib. ABŞ-ın sərhədlə bağlı nə təklif etdiyi isə hələlik bəlli deyil. Bir sözlə, indiki status-kvonun saxlanılması İrəvan üçün çətinləşir.

**Azərbaycan Milli Strateji Təhqiqatlar Mərkəzinin rəhbəri Natiq Miri hesab edir ki, sülhməramlı xarici qoşunların Qarabağda yerləşdirilməsi o qədər də asan məsələ deyil:** "Əvvəla, nəzərə almaq lazımdır ki, regional ölkələr, xüsusilə regionda İran və Rusiya kimi böyük dövlətlər Qərb dünyasının hərbçilərinin sülhməramlı adı altında olsa da Cənubi Qafqazda yerləşməsini birmənalı olaraq istəmir. Xüsusilə İran öz dövləti üçün potensial təhlükədir. Bütün bu təcrübələr göstərir ki, əgər Rusiya sülhməramlıları Qarabağda yerləşdiriləcəksə, bu, o anlama gələcək ki, Qarabağ birmənalı olaraq Azərbaycanda qoparılıb Rusiyaya təhvil veriləcək. Çünki Qarabağda rus qoşunlarının yerləşməsi Azərbaycanın suveren hüquqlarını əlindən alacaq. Azərbaycan istənilən müstəqil geosiyasi sərhədləri boyunca ABŞ-ın və Qərb ölkələrinin hərbi qüvvələrinin yerləşməsini qətiyyən arzulamır. Ona görə də Qərb-İran nüvə anlaşması kontekstində mən bu prosesi çox ağrılı və çətin görürəm. Başqa tərəfdən, əgər Rusiya iddia edirsə ki, sülhməramlılar ancaq Rusiya hərbi qüvvələrindən ibarət olacaq, bunu qətiyyən qəbul etmək olmaz. Bu, Azərbaycanın dövlət və milli maraqlarına ziddir. Çünki Rusiya sülhməramlılarının böyük "praktikası" var. Biz bunu Gürcüstanda Abxaziya və Cənubi Osetiyada gördük. Məhz həmin sülhməramlılar vasitəsilə Gürcüstan torpaqları işğal olundu. Bu gün ilhaq olunaraq tədricən Rusiyaya birləşdirilmək üzrədir. Rusiyanın sülhməramlıları Moldovada Dnestryanı bölgədə yerləşir. Həmin bölgəni də Moldovadan demək olar ki, qoparıblar. Həmin sülhməramlı qüvvələr Moldova qərar verdiyi təqdirdə və bu qərar Rusiyanın maraqlarına uyğun olmadığı halda Rusiya yenidən Qarabağ yarasını qanadacaq və bu prosesi orada yerləşən sülhməramlı adlanan hərbi qüvvələri vasitəsilə idarə edəcək. Odur ki, rus qoşunlarını Azərbaycan ərazisinə dövlət adına buraxmaq böyük bir cinayət olardı".

**O ki qaldı həm Rusiya, həm də Qərb dünyasının birgə sülhməramlılarının yerləşdirilməsinə, ekspert düşünür ki, Rusiya və ABŞ qoşunlarındansa, əgər sülhməramlı qoşunların yerləşməsi vacib şərt olacaqsa, bu, yalnız BMT-nin himayəsi altında mümkün ola bilər. Bu da konkret şərtlər altında mümkündür:** "Birmənalı bəlli olmalıdır ki, gələcəkdə Dağlıq Qarabağın statusunun müəyyənləşməsi məsələsi orada referendumun keçirilməsinə bağlı olmalı deyil. Bu məsələ Dağlıq Qarabağ regionunun gələcəkdə sosial inkişafına bağlanmalıdır. Bəlkə həqiqətən də Azərbaycan elə böyük investisiya qoyacaq ki, Dağlıq Qarabağda yaşayan ermənilər heç vaxt Ermənistanla birləşmək və ya müstəqil olmaq istəməyəcək. Biz bu təcrübəyə şərqi Timurda və digər Avropa ölkələrində rast gəlmişik. Müəyyən sosial-iqtisadi inkişafdan sonra orada yaşayan etnik qruplar müstəqil olmaq ideyasından imtina ediblər".

❑ **Etibar SEYİDAĞA**

# Attestatla hüquqçu diplomu



**Xalid KAZIMLI**

**Bu gün onsuz da bu mövzuda yazacaqdım, aşağıda sizə təqdim etdiyim elan lap yerinə düşdü.**

Sosial şəbəkədə yayılmış reklam xarakterli elan belədir (hərfinə, nöqtəsinə, vergülünə toxunulmayıb):

"TQDK imtahanında keçid balını keçə bilməyənlərə şad xəbər.

Attestatınızla birlikdə bizim mərkəzə yaxınlaşaraq lazım olan sənədləri təqdim edin. Və bakalavr təhsilinizi Türkiyədə davam etdirin. Türkiyənin 30-dan artıq Dövlət Universiteti sizi qəbul edir. İqtisadiyyat, turizm, mühəndislik, tibb, menecment, hüquq və s. ixtisaslar üzrə təhsil ala bilərsiniz. Yataqxana və universitetə qeydiyyat xidmətləri Bizim Təhsil Mərkəzi tərəfindən həyata keçirilir.

Qeydiyyatı üçün lazım olan sənədlər

1) Attestat

2) Şəxsiyyət vəsiqəsi

3) Şəkil 6 ədəd..."

İndi siz təsəvvür edin, bu iş baş tutsa, yəni elanda yazılanlar düz olsa, "TQDK-nın imtahanında keçid balını keçə bilməyənlər" xaricdə təhsil alaraq ölkəmizə mühəndis, iqtisadçı, hüquqçu kimi dönəcəklər. Bu məsələyə sonra dönərik.

İndilikdə ondan bəhs edək ki, bu, sadəcə, fırıldaqdır. Fəndgir və işbaz adamlar övladına nəyin bahasına olursa-olsun ali təhsil vermək istəyən valideynlərə kələk gəlib külli miqdarda pul-paralarını çırpışdırır, aradan çıxırlar. Onlar hətta abituriyentə nəfis tərtibatda işlənmiş, qaytanlı, surğuclu, imzalı, möhürlü qəbul kağızı təqdim edirlər. Ancaq "tələbə" təhsil müəssisəsinə yola düşmək günü gələndə məlum olur ki, lələ köçüb, yurdu qalıb.

Üç il öncə qonşumun başına belə bir iş gəlmişdi. Onun məzun oğlu TQDK-nın imtahanında keçid balını keçə bilməmişdi, "sürüşdürmüşdü", axır ki, 170 civarında bal toplamışdı. Zəhmətkeş valideynlər onun təhsil almasını çox istəyirdilər, hansısa texnikuma düzəltmək istəyəndə bu cür bir elan görmüşdülər. Beləcə, tək oğullarının Bursa Dövlət Universitetinin tələbəsi olması üçün 5 manatından keçən zəhmətkeş ata vədə günü oğlunu Türkiyəyə yola salmaq istəyəndə şok keçirmişdilər. Təyin olunan ünvanda aldadılmış valideynlərdən və gənc tələbələrdən başqa heç kəs yox imiş. Fırıldaqçılar qaçıb aradan çıxmışdılar. 50-dən artıq "tələbə" isə diyircəkli çamadanları ilə küçənin ortasında qalaraq, aldandıqlarını anlamışdılar.

Qonşum başına gələnləri ictimailəşdirdi, hüquq-mühafizə orqanlarına şikayət etdi, bu barədə bizim qəzet də yazdı. Məqalənin dərc olunmasında sonra həmin fırıldaqçılara qarşı cinayət işi açıldı, tezliklə o şəxs saxlanıldı, qonşumun 5 min manatından təxminən 4500-ü özünə qaytarıldı. Ancaq o danışırdı ki, təxminən 10-15 adamın pulu qaytarılıb, qalan 90-100 nəfərə yaxın aldanmışın tam əksəriyyəti heç şikayətçi də olmayıblar. Ya qorxublar, ya da "it aparan olsun" deyib, puldan vaz keçiblər.

"Tələbə qəbulu" işinə baxan fırıldaqçı bir müddət yatandan sonra azadlığa buraxıldı. Belə görünür ki, adam indi "biznes"ini xeyli genişləndirib. Yuxarıda oxuduğunuz elan da ya o, ya da onun kimi biriləri yazıb, yayıb.

Nə qədər təbliğat aparılır, aparılsın, izahat verilir, verilsin, xeyri yoxdur, yenə o fırıldaqçıların toləsinə yüzlərlə valideyn düşəcək, birtəhər qazandıqları pulu fırıldaqçılara qapdıracaqlar.

Çünki onlar istəyirlər ki, övladları ali təhsilli olsun, "əlində sənəti olsun", "nəsə bir diplomu olsun".

Bu adamlar özlərinə hesabat vermirlər ki, övladları savadsızdır, 700 mümkün baldan 200-nü (hətta ondan da aşağı) toplayırsa, uşaq oxumayıb, biliyi "iki" civarındadır və o, universitetə qəbul oluna bilməz. Hətta hansısa fırıldaqla qəbul olunsa da, ondan gələcəkdə mütəxəssis olmayacaq.

Nə məcburdur ki, hamı haqqı çatdı, çatmadı, universitetə daxil olsun. O qədər gözəl və gəlirli peşələr, sənətlər var və həmin gənclər öz istedadlarına uyğun iş tapa, peşə öyrənə bilərlər. 9-cu sinif təhsili olan avtomobil ustası tanıyıram, sexinin qarşısında növbə olur. Bir dəfə o adam gözümün qabağındaca 1 saatın içində 270 manat pul qazandı. Hər kəs onun haqqında "beyni kompüterdir, əlləri qızıldır" deyir, amma yəqin ki, o, ali məktəbə daxil olmaq istəsəydi, TQDK-nın imtahanında keçid balını keçə bilməzdi.

Yuxarıdakı elan fırıldaq olsa, bu, əlbəttə, pis şeydir, cinayətdir. Amma qorxasan, doğrudan da attestatla hüquqçu diplomu düzəldələr. Bax, bu cinayətdən də pisdir, faciədir.



# Siyasi texnoloq olmaq asandırmı?..

Hüseynbala SƏLİMOV

**Yadıma 90-cı illərdə keçirilmiş bir seminar düşür. Bir amerikalı seçki texnologiyalarından danışırdı. Bizimkilər əvvəlcə onu ciddi qəbul etmirdilər və məzəli suallar verərək az qala ələ salırdılar...**

Amma elə ki, söhbət qazanılan pullar üstünə gəldi, onda bizimkilərin hamısı dərin fikrə getdi və amerikalıya münasibət dəyişdi...

İndi Rusiya mətbuatında “Siyasi texnoloq olmaq asandırmı?” başlıqlı yazını görəndə nədənsə dərhal bu hadisə yadıma düşdü...

Təbii ki, Rusiyada bu prosesin müəyyən elementləri qalıb, baxmayaraq ki, oralarda da sosioloji və politoloji analizlərlə məşğul olan qurumların maliyyə qaynaqları budanıb...

Bizdə isə bu proses hətta başlaya bilmədi. Yadıma 94-cü il düşür. Məğlub olmuş təşkilat, dağınıq struktur, aydın olmayan və qaranlıq siyasi perspektivlər... O vaxt siyasi proseslərin bir özəlliyi vardı - hərbiləşmiş siyasi strukturlar, necə deyərlər, hərbi müxalifət dominantlıq təşkil edirdi...

Başa düşürdük ki, uzun müddət belə ola bilməz. Onların fəaliyyətinə son verilməlidir. Amma insanlar arasında dinc mübarizə metodlarının perspektivinə inam az idi. Ona görə də onları inandırmağa ehtiyac vardı və biz o vaxt siyasi mübarizənin əsas vasitəsi haqda - seçki haqqında yazmağa və danışmağa başladıq...

İlk reaksiyalar indi də yadımdadır. Seçkidən söhbət salanda insanlar dərhal qayıdırdı ki, deməli siz bu hakimiyyəti tanıyırsınız? Bəli, buna “hə” deyə cavab vermək o vaxt bəzi təşkilatlarda siyasi intihara bərabər idi, səni mütləq harasa bağlayacaq və kiminsə “adamı” elan edəcəkdilər...

Amma başqa yol da yox idi. Hərbi müxalifətin devirdiyi siyasi qüvvənin durub təzədən başqa bir hərbi müxalifətə dəstək verməsi və yaxud da həmin mübarizə üsulunu seçməsi məntiqsizlik olardı...

Qərəz, başladıq vurğunu seçkiyə və seçki texnologiyalarına etməyə. Tez bir zamanda sonuncu hərbi müxalifət də zərərsizləşdirildi. Artıq seçki texnologiyalarının opponentlərinin də seçki ilə razılaşmaqdan savayı bir çıxış yolu qalmamışdı...

Seçki bir siyasi mübarizə üsulu kimi təsdiq olundu. Amma bizi aldatdılar. Birincisi, bizi hakimiyyət aldatdı, o, demokratik və ədalətli seçkilər keçirmədi. İkincisi, bizi öz silahdaşlarımız aldatdı. Onlar demokratik və ədalətli seçkilər uğrunda mübarizə aparmaq əvəzinə hakimiyyətlə separat danışıqlara getdilər və özləri üçün bir-iki mandat qoparıb yerlərində oturdular...

Qərəz, o vaxt çox, olduqca çətin idi. Bir tərəfdə hakimiyyətdən bir-iki mandat dilənən bəzi liderlər, o biri tərəfdə isə dinc siyasi mübarizəni düzgün yol hesab etməyənlər dayanmışdı. Sonuncuların da elə bil revanş saatı çatmışdı və elə hey “Biz deyirdik axı!” - deyə bağırırdılar...

Bir sözlə, bu prosesdən heç nə alınmadı. Təbii ki, hərbiləşmiş müxlaifətin sıradan şıxması yaxşı hal idi. Amma nə seçki tərəfdarları, nə də seçkilərin tam əleyhdarları heç bir uğur qazana bilmədilər...

Ona görə də siyasi texnoloq, siyasi texnologiya, siyasi imic və imicmeyker kimi anlayışlar bu ölkədə bir ekzotikaya çevrildi-indi bundan danışsan, adama yad planetli kimi baxar, bəlkə də ələ salarlar...

Neyləmək olar? Artıq adama elə gəlir ki, əbədi olaraq belə də davam edəcək. Halbuki hətta Gürcüstanda belə normal seçkilər keçirilir. Düzdür, biz onların tamam normal keçdiyinə zəmanət verə bilmərik. Amma seçki yolu ilə hakimiyyət dəyişirsə, bunun özü artıq çox şey deyir...

Biz isə yerimizdə sayırıq. Bəzən çatışmazlıqlara göz yummağa cəhd edir və özümüzü inandırmağa cəhd edirik ki, hər şey heç də düşünülən qədər də dramatik deyil. Amma sonradan görürsən ki, yox, elə dramatikdir ki, var və biz ən azı bu hakimiyyətdən məsafə saxlamaqla düz edirik, çünki onlar hamını aldadırlar...

Siyasi texnoloq olmaq üçün isə yalnız onların tərəfində “şans” var. Ona görə ki, onlar daim bu yalanın ömrünü uzatmaq yolları haqqında düşünür və bunun üçün “qara siyasi texnologiya”nın imkanlarından yararlanmağa çalışırlar...

Qısa müddətdə bəndəniz institutların birində sosiologiyadan dərs deyib və hər dəfə tələbələr “Sosioloq kimi biz harada yararlı ola bilərik?” - deyə soruşanda mən susub qalırdım, çünki cavab tapa bilmirdim... Və yadıma “Alma almaya bənzər” filmindən bir cümlə düşürdü. Orada deyilir ki, bu, elə bir səhralıqdır ki, hətta üfüqlərində də keçici qırmızı bayraq görünmür...

---

**Bu il mayın 19-da Binəqədi rayonunda 15 nəfərin ölümünə, 56 nəfərin xəsarət almasına gətirib çıxaran yanğın baş verdi. Qısa bir vaxtda məlum oldu ki, bina poliuretan adlı materialla üzlənib və həmin material tezalışandır. Belə bir vəziyyətdə binanın kibrit kimi yanan materialla kimin və hansı hesabdan üzlətdirməsi sualı ortaya çıxdı.**



# Yanan binaya “ölüm paltarı” Fazil Məmmədovun pulu ilə alınıb

## Maliyyə Nazirliyi poliuretan üzlüklərin alınmasına pul ayırmayıbmış; Baş Prokurorluq istintaqın gedişi ilə bağlı “Yeni Müsavat”a açıqlama verdi

Redaksiyamıza bu suallara qismən cavab olan məlumatlar daxil olub. Qaynağımız deyib ki, Binəqədidə binaların üzlənməsinə ayrılan vəsait dövlət büdcəsindən verilməyib. Həmin vəsait vergilər naziri Fazil Məmmədovun olub. Məlumdur ki, vergilər naziri 3 rayonun - Binəqədi, Şəmkir və Gədəbəyin qeyri-rəsmi kuratorudur. Həmin rayonlardakı abadlıq işlərinə də icra başçıları vasitəsilə nazirin özü nəzarət edir. Belə iddia var ki, Binəqədidəki binanın üzlənməsinə nazirin nəzarətindəki hesabdan pul ayrılıb. Yəni yanan binaya “ölüm paltarı” Fazil Məmmədovun pulu hesabına alınıb.

Qeyd edək ki, “Yeni Müsavat” mayın 23-də Maliyyə Nazirliyinə informasiya sorğusu yollayıb. Həmin sorğuda aşağıdakı suallara aydınlıq gətirilməsi istənilib:

*1. Binəqədi rayonunda binaların üzlənməsinə dövlət büdcəsindən hər il nə qədər vəsait ayrılıb?*

*2. Vəsaitin təyinatı üzrə xərclənib-xərclənməməsinin auditi hansı nəticələr verib?*

*3. Ayrılmış vəsaitdən bilavasitə yanmış binanın üzlənməsinə nə qədər vəsait xərclənib?*

*4. Həmin binaya ayrılan vəsaitin təyinatı üzrə xərclənib-xərclənməməsinin auditi həyata keçirilibmi?*

*5. Keçirilibsə, nəticəsi necə olub?*

Maliyyə Nazirliyinin mətbuat katibi, informasiya azadlığı üzrə məsul şəxs Mais Piriyev müvafiq araşdırmalardan sonra sorğumuza mayın 29-da cavab verəcəklərini bildirmişdi. Lakin hələ də sorğumuz cavabsızdır...



Qeyd edək ki, yanğından sonra həyata keçirilən istintaq tədbirləri çərçivəsində 2012-2013-cü illərdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini işləmiş Qəzənfər Novruzov tutulub. Onun barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Onun həbsi ilə bağlı yayılan ilkin rəsmi məlumatda deyilir ki, Q.Novruzov binanın poliuretan materialla üzlənməsi işlərinə nəzarət funksiyalarını həyata keçirməli olub, lakin nəzarət etməyib və bu gün də səhlənkarlığının cəzasını çəkir. Bəs həmin o poliuretan üzlüyün binaya vurulmasına kim göstəriş verib? Həmin poliuretan üzlüyün binaya vurulması üçün pulu kim verib?

Hazırda istintaqçılar yanğınla bağlı araşdırmalarını davam etdirirlər. Artıq yanğının hansı səbəbdən baş verməsi haqda rəy də istintaq orqanına təhvil verilib. Binanın təsadüfi qığılcımdan və ya bilərəkdən yandırılması haqda suallara istintaq cavab verməlidir.

**Baş Prokurorluğun mətbuat xidmətinə müraciət edib binadakı yanğının səbəbinin müəyyən edilməsinə yönələn istintaq hərəkətlərinin nəticəsi ilə maraqlandıq. Xidmət rəhbəri Eldar Sultanov bildirdi ki, hazırda cinayət işi üzrə istintaq davam etdirilir:** “Cinayət işi üzrə zəruri və təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri həyata keçirilməklə hadisənin çoxlu sayda zərərçəkmişləri və 200-dən artıq şahidləri dindirilib, yanğının baş vermə səbəbləri, yanğın nəticəsində vurulmuş ziyanın müəyyənləşdirilməsi məqsədi ilə iş üzrə məhkəmə-yanğın-texniki, tikinti-texniki, fiziki-kimyəvi, məhkəmə-tibbi və digər ekspertizalar təyin edilmiş, eyni zamanda müvafiq prosessual hərəkətlər yerinə yetirilir. İş üzrə təyin edilmiş ekspertizalar tamamlandıqdan sonra müvafiq qayda dA rəylərIN istintaqa təqdim olunması təmin ediləcək”.

Bu həbsləri ekspertlər, həmçinin ictimaiyyət yetərli hesab etmir. Əsas arqument kimi tutulan şəxslərin səlahiyyətlərinin çox aşağı olması göstərilir. Başqa sözlə desək, tutulanların binalara üzlük vurulmasında texniki işçilər olduğu vurğulanır. Qeyd olunur ki, bu şəxslər istəsəydilər belə binaların poliuretanla üzlənməsini özbaşına təmin edə bilməzdilər.

Bəs Baş Prokurorluq sözçüsü bu etirazları haqlı sayırmı?

**E.Sultanov bildirib ki, hazırda istintaq davam edir:** “Hadisənin baş verməsində təqsiri olan digər vəzifəli şəxslərin tam dairəsinin müəyyənləşdiriləcək onların məsuliyyətə cəlb olunması istiqamətində istintaq əməliyyat tədbirləri aparılır”.

Yanğının ortaya çıxardığı suallar çoxdur, cavablar isə suallara adekvat deyil.

❑ E.MƏMMƏDƏLİYEV

**Təhsil naziri Mikayıl Cabbarovun ANS TV-də Mir Şahin Ağayevə müsahibə verməsi və müsahibə zamanı səsləndirdiyi fikirlər iki gündür ki, mətbuatda müzakirə olunmaqdadır. Nazirin müsahibə zamanı toxunduğu bir çox məqamlar cəmiyyətdə maraqla qarşılanıb. M.Cabbarov müəllimlərin əmək haqqının artırılması niyyətində olduğunu açıqlayıb. Nazir olduğu dövrdə təhsil sisteminə qazandırdığı müsbət məqamlarla bağlı suallara cavab verən Mikayıl Cabbarov Mir Şahinin sərt sualları ilə də qarşılaşıb.**

# Ekspertdən nazirin ANS-ə müsahibəsinə rəy

## Etibar Əliyev: "Mikayıl Cabbarovla müsahibəsində Mir Şahin qərəzli görünürdü"

"Yeni Müsavat"a açıqlamasında "ANS" TV-nin efirində yayımlanan müsahibəni təhlil edən təhsil eksperti, **"XXI Əsr" Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev** diqqət çəkən məqamlardan danışdı: "Bu müsahibəni təhsil naziri ilə "Açıq söhbət" kimi də dəyərləndirmək olar. Təhsil nazirinin Mir Şahinlə müsahibəsində yadda qalan əsas məqamlardan biri Mir Şahinin bir qədər qərəzli görünməsi idi. Bu, mənim subyektiv fikrimdir. Mən Mir Şahini təhsilin problemlərindən xəbəri olan adam kimi tanıyıram. Bəlkə də bu onun ümumi istedadının tərkib hissəsidir. Ancaq bu müsahibədə onun bu keyfiyyəti özünü büruzə vermədi. Məsələn, Mir Şahinin keçmiş təhsil naziri Misir Mərdanovla çox "səmimi" və əmin-amanlıqla müsahidə olunan müsahibələri olub. Yəni 15 il təhsil naziri işləmiş və təhsildə tənəzzülün "atası" sayılan Misir Mərdanova Cabbarova verilən suallar tipində suallar verilmirdi. Mikayıl Cabbarovun cavabları akademik cavablar idi və hiss olunurdu ki, cavablar Mir Şahini həm də təəccübləndirir. Belə bir deyim var. "Yaxşı sual cavabın yarısıdır". Məsələn, Mir Şahinin verdiyi "Orta təhsilin 12 illiyə keçidi cəmiyyətdə müəyyən qədər müzakirə olunan mövzudur. Elə mən bura gələndə, məsələn, bizim işçilərimizdən birinin çox ürəklə, həvəslə və eyni zamanda həyəcanla verdiyi sualdır. Nə verəcək bu 12 illik təhsil bizə? Dala salacaq bizi, yoxsa qabağa salacaq? Nə ilə bağlıdır" sualı "Tarixi-Nadir"i oxumaq məsələsini yada salır".

**E.Əliyevin sözlərinə görə, müəllimlərin maaşının artırılması, gənclərin bu sahəyə cəlb edilməsi istiqamətində hazırkı təhsil naziri daha uğurlu addımlar atıb:** "Orta məktəb müəllimlərinin əmək haqqının böyük faizlə artımı Cabbarovun nazir işlədiyi vaxtda olub. Əslində bu proses rasional şəkildə aparıldı. Prosesdə müəllimlərin biliklərinin diaqnostik qiymətləndirilməsi əsas götürüldü. Bu texnologiya əvvəllər



düşünülməmişdi. Lakin bunu və 500 baldan yuxarı nəticə göstərib, pedaqoji ixtisasları 1-ci göstərənlərə 100 manat əlavə təqaüdün təyin olunmasını yenilik kimi görməyənlərə təəccüblənmək lazımdır. "Sabah" qruplarının yaradılması, həmçinin fənn olimpiadalarının yüksək səviyyədə keçirilməsini Mir Şahinin qeyd etdiyi təkamül yoluna aid etmək olmaz. Bu il 700 bal toplayanların sayının ötən illərlə müqayisədə daha çox olmasında fənn olimpiadalarının rolu danılmazdır. Məncə, M.Cabbarov xaricdə təhsil alanlar və 12 illik təhsillə bağlı verilən suallara aydınlıq gətirə bildi. Ali məktəb rektorlarının tabeçiliyi məsələsinə gəldikdə isə o, fikrini açıq şəkildə bildirdi ki, məqsəd Azərbaycan təhsilinin keyfiyyətinin artırılması, müvafiq ali təhsil müəssisəsinin fəaliyyətinin təkmilləşməsindən ibarətdir: "Bu günkü gündə bir təhsil naziri kimi mən rektorlarla münasibətlərdən şikayətçi deyiləm. Kiminsə işini biz daha yüksək qiymətləndiririk, kiminsə işini o qədər də yox".

**Ekspert qeyd etdi ki, müsahibədə maraqlı suallardan biri nazirin ölkənin bütün təhsilinin hansı faizinə rəhbərlik etməsi ilə bağlı oldu:** "Mikayıl Cabbarov real durumdan çıxış edərək təhsil müəssisələrinin ikili tabeçiliyindən danışdı. Ancaq mən gözləyirdim ki, o, ikili tabeçiliyin zərərini də qeyd edəcək. Təhsil Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında Azərbaycan prezidentinin sərəncamı ilə 15 regional təhsil idarəsi yaradılıb. Ancaq hansısa səbəblərdən bu sərəncamın icrası dayandırıldı. Bu sərəncam orta məktəbləri ikili tabeçilikdən xilas edir. Orta təhsildə tənəzzül ikili tabeçilik yaradır. Məncə, bu barədə və inkişafa əngəl törədən digər amillər barədə cəsarətli danışmaq lazımdır. Çünki təhsilin problemi hamımızın problemidir".

❑ Nərgiz LİFTİYEVA

# Avropa Oyunlarından sonrakı proqnozlar niyə ləngiyir?

## Ekspertlər bildirirlər ki, durğunluq optimist olmağa əsas vermir...

**İlin əvvəlkindən hər kəs ölkədə keçiriləcək Avropa Oyunlarına köklənmişdi. Cəmiyyətin və ekspertlərin oyunlardan sonra ciddi hadisələr baş verəcəyinə dair gözləntiləri vardı. Pozitiv və müsbət olmayan proqnozlar haqda oyunlar ərəfəsində çox danışıldı. Məsələn, biznes mühitinin yaxşılaşacağı, islahatlar aparılacağı, habelə yeni siyasi həbslərin, müxalifət düşərgəsinə təhdidlərin olacağına dair müxtəlif fikirlər səsləndirilirdi.**

Həmçinin milli valyutanın daha da dəyərdən düşəcəyi ehtimalları vardı. Ancaq oyunlardan keçən müddətdə hələ ki bu, baş verməyib. Ekspertlər isə bildirirlər ki, durğunluq optimist olmağa əsas vermir.

**Ekspert Ərəstun Oruclu** bildirir ki, əslində proqnozlar özünü doğrultmadı demək olmaz: "Çünki bu gün biz müxtəlif formalarda təzyiqlər görürük. Kimlərinsə ailə üzvlərinə təzyiqlər, kimlərinsə özlərinə təzyiqlər olur. Xüsusi bir aqressivləşmə görünməsə də, xəttin davamını görürük. Onu görürük ki, ölkə əslində iqtisadi böhrana doğru gedir. İqtisadi böhrandan çıxmağın heç də iqtisadi yolları araşdırılmır. Başqa bir tərəfdən də Azərbaycanın ünvanına artıq terrorçu təşkilatlar, məsələn, İŞİD tərəfindən təhdidlər səsləndirilir. Yəni hər halda, gördüyümüz proses budur ki, Avropa Oyunlarından sonra müsbət tendensiyalar müşahidə olunmur. Ayrı ciddi bir gözlənti yoxdur ki, tutaq ki, iqtisadiyyatda liberallaşma gedəcək, islahatlar aparılacaq və sair. Şəxsən mən bunu gözləmirəm".

**Ekspert Natiq Cəfərlinin sözlərinə görə, əslində proqnozlar müxtəlif idi:** "Əks proqnozlar da var idi ki, oyunlardan sonra yumşalma da ola bilər, müəyyən açıqlıq da ola bilər, müəyyən addımlar da atıla bilər. Amma heç bir yöndə dəyişiklik ciddi şəkildə olmadı. Bir neçə xoşagəlməz hadisələr baş verdi. Emin Milli və digər müxalifətçilərin qohumları ilə bağlı bəzi xoşagəlməz hadisələr baş verdi. Ancaq proqnozlaşdırılan ciddi repressiyalar olmadı. Şükür ki, olmadı, yaxşı ki, olmadı. Çünki Azərbaycanda indi elə bir vəziyyətdir ki, repressiyalarla ölkədəki vəziyyəti həll etmək mümkün ol-



Ərəstun Oruclu



Natiq Cəfərli

mayacaq. Yəni ölkədə ciddi real hadisələr var və onun səbəbi heç də insanların nəsə yazmağı, nəsə danışmağı deyil. Amma çox təəssüf ki, əks proses də olmadı. Oyunlardan sonra bəziləri düşünürdü ki, yumşalma müşahidə oluna bilər, məhbusların azadlığa çıxması məsələsi həll oluna bilər, islahatlarla bağlı müəyyən addımlar atıla bilər. Hətta hökumətdə müəyyən dəyişikliklər ola bilər, bəzi nazirliklərin birləşdirilməsi və məmurların işdən getməsi ola bilər. Öz işini yaxşı apara bilməyən, bacarmayan məmurların işdən getməsi baş verə bilər. Bunlar da olmadı. Hələlik oyunlardan əvvəlki status-kvo qorunub saxlanılır. Cəmiyyətdə belə bir müəyyən dərəcədə gərginlik də bununla bərabər qorunub saxlanılır. Cəmiyyətin düşünən insanları, aktiv olan insanları, gündəlik siyasi, ictimai, iqtisadi hadisələrlə maraqlanan insanlar düşünürlər ki, proseslər hansı yöndə gedir və inkişaf ola bilər, ölkədə hansı islahatlar baş verəcək? Çünki ölkədə ciddi şəkildə problemlər var. Problemlər də getdikcə artır. Həm makroiqtisadi göstəricilərdə, bank sektorunda problemlər var. Pis gözləntilərin olmaması təqdirəlayiq haldır. Amma təəssüf ki, yaxşı gözləntilər də olmadı. Yaxşı olardı ki, yaxşı proqnozlar özünü doğruldaydı. Hökumət nəhayət ki, müəyyən addımlar ataydı, vəziyyəti yumşaldardı. Müəyyən islahatlar üçün komissiya qurulardı, diskussiyalar başlanardı. Ən azından Rusiyadakı və Qazaxıstandakı olan ortama bənzər bir ortam formalaşardı. Çünki Rusiya və Qazaxıstanda son vaxtlar bir neçə nazirliklərin yanında, hətta prezident yanında ictimai şuralar fəaliyyətə başlayıb və ciddi müzakirələr gedir. Hətta ölkədə prezidenti, baş naziri, nazirləri açıq efirdə tənqid edəcək qədər canlı yayımlarda müzakirələr təşkil olunur. Bunun özü Azərbaycan üçün də bir siqnal olmalıdır ki, Azərbaycanda da müəyyən dərəcədə disskussiyalara start verilməlidir. Ölkənin köklü problemləri müzakirə olunmalıdır. Bu problemdən çıxış yolları haqqında fikri ola bilən, bir qatqısı ola bilən, müəyyən dəyərli təklifi ola bilər insanların müəyyən fikir fırtınasını təşkil etmək lazımdır. Amma status-kvo davam edir. Oyunlardan əvvəlki və sonrakı vəziyyət ciddi şəkildə fərqlənmir. Yeganə fərq iqtisadi vəziyyətin getdikcə daha sürətlə ağırlaşmasıdır".

**Ekspert Avropa Oyunlarından sonra manatın devalvasiyası ilə bağlı proqnozların da özünü doğrultmamasının səbəblərini açıqlayıb:** "Oyunlardan öncə panik vəziyyət yaranında, əhali əlindəki manatı dollara çevirdi. Kimin əlində sərbəst manat kütləsi var idisə, ya devalvasiyadan öncə, ya sonra kütləvi şəkildə dollara dəyişdi. Əsasən də insanların hətta əmanətlərinin böyük hissəsi dollara çevrildi, əmanətlər az qala iki dəfəyə yaxın artdı. Manatdan dollara keçid iki dəfəyə yaxın artdı. Bu da bir doyumluq yaratdı bazarda. Ona görə də manata olan təzyiqlər müəyyən dərəcədə azaldı. Bundan əlavə, oyunlardan sonrakı bir ayda neftin qiymətləri də kifayət qədər yüksək səviyyədə idi. Neftin qiyməti qalxmışdı. Bu da ölkəyə daxil olan valyutanın həcmini təbii ki, artırırdı. Bu da Mərkəzi Bankın əlini rahatladırdı. Manata olan basqılar müəyyən dərəcədə aradan qalxırdı. İndi isə görünən odur ki, iyulun əvvəllərindən başlayaraq, əsas da İranla "altılıq" anlaşmasından sonra dünya bazarında neftin qiyməti təqribən 16 faiz düşüb. Bu günə 51 dollar civarındadır. Yəni ciddi şəkildə enmə var qiymətlərdə. Bunun özü manata getdikcə basqıları artıracaq. Bu da özünü bəzi məsələlərdə büruzə verir. Bank sektorunda baş verənlər, böhranlı vəziyyət, bir neçə bankın bağlanması, bank olmayan kredit təşkilatları ilə bağlı problem bunu deməyə əsas verir. Görünən odur ki, Azərbaycan iqtisadiyyatında fundamental problemlər yerindəcə qaıb. Sadəcə, müəyyən addımlarla hökumət müəyyən problemləri qısamüddətli həll etməyə qadirdir. Bunun üçün Azərbaycanın hələ də kifayət qədər resursları var. Amma orta və uzun vədədə problemlər özünü mütləq büruzə verəcək və bunun həlli üçün ciddi islahatlardan başqa yol yoxdur".

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 168 (6196) 4 avqust 2015

# Tural Mustafayevdən sensasion açıqlamalar...

**AzadlıqRadiosunun əməkdaşı, hazırda həbsdə olan jurnalist Xədicə İsmayılovanın məhkəməsi öz işinə başlayıb. Avqustun 7-də növbəti məhkəmə prosesi keçiriləcək. Amma xanım jurnalistin həbsinə səbəb olan, intihar həddinə çatdığı üçün ondan şikayət ərizəsi verən jurnalist Tural Mustafayev avqustun 3-də sosial şəbəkədə yazdığı statusla diqqət cəlb edib. Məlumdur ki, T.Mustafayev aylar öncə təzyiq nəticəsində X.İsmayılova əleyhinə ifadə verdiyini açıqlayıb. Son statusunda isə bəzi detallara aydınlıq gətirib.**



# Xədicə İsmayılovanın işində şok gəlişmə - "gizli kamera..."

## Tural Mustafayev: "Bəzi şahidlər gizli videolarının yayılacağı ilə şantaj olunduqları üçün Xədicə İsmayılovanın əleyhinə ifadə veriblər"; "Mənə videoları göstərib dedilər ki, bunlar yayılacaq..."; "Evimdə gizli görüntülər çəkilib; bunlar 6 nəfərdir"

**"Mən video bəyanatda demişdim ki, mənim evimə gizli kamera yerləşdirilib və yataq görüntüləri çəkilib"**

Status aşağıdakı kimidir: "Həbslər üzərində karyera quranlar, Xədicənin həbsi çoxlarının əlini çörəyə çatdıracaq. Nə oldusa Xədicəyə oldu. Zindanda onun canı çürüyəndə, siz hotellərdə qlamur təlimlərdən fotolar paylaşıb spekulyasiya edəcəksiniz.

Doğrudan da kimlərsə təzyiqlərə məruz qaldı. Kimlərsə həbsdən canını qurtarmaq üçün danışıqlara getdi və real dəlilləri gizlətdi. Kimlərsə də hakimiyyət pulları və nümayəndələri ilə Mayamidə tətil keçirmək istədi. Əla, əla, əla. Bir şey, nəzərinizə çatdırım. Məni söyənlər, təhqir edənlər arasında elə həmin adamlar baş rolda idi. "Baş rolda" məni irəli verməmişdilər. Amma düşünmədilər ki, hər şey sona çatanda baş rolda özləri olacaqlar".

"Yeni Müsavat" isə T. Mustafayevin son hadisələr və məhkəmə prosesi ilə bağlı fikirlərini öyrənib. Söhbət zamanı ortaya istintaqla bağlı şok detallar çıxıb.

***- Statusunuz kimə və ya kimlərə həsr olunub?***

- Rövşənə Rəhimliyə. Mənim keçmiş nişanlım. Facebookda Mayami haqqında bir görüntü verib. Sonra bir testdən keçib ki, kimlə tətil keçirmək istəyir. Testlər o an insanları irəli çəkir ki, o insanla mütəmadi yazışırsan. Həmin testin ortaya çıxardığı adam isə Apellyasiya Məhkəməsinin işçisidir.

***- Xədicə İsmayılovanın ilkin məhkəmə iclasında iştirak etmisiz. Ayın 7-dəki prosesə qatılacaqsız?***

- Bəli, ayın 7-də məhkəməyə qatılacam. Birinci məhkəmə gülünc keçdi. Ayın 7-nə isə onsuz da gözləntilər çox azdır. Amma çalışacam ki, 125 -ci maddəyə (özünü öldürmə həddinə çatdırma) xitam verilsin. Bundan artığı yəqin ki, alınmayacaq

***- Buna necə nail olmağı düşünürsüz?***

- Öncə xitam verilməsi ilə bağlı vəsatət qaldıracam. Əgər bu da alınmasa, 296-cı maddəni rəhbər tutaraq, verdiyim ifadələrin təzyiq altında verdiyimi bildirəcəm, bir necə dəlillər gətirəcəm.

***- İlk məhkəmədə Xədicə xanımı görə bildizmi?***

- Bəli.

***- Aranızda hər hansı kontakt, söhbət oldumu?***

- Xeyr, olmadı. Amma mən sizə videoda şantaj edilənlərin adını çəkmək istərdim.

***- Hansı videoda?***

- Hansı ki mənim evimdə gizli görüntülər çəkilmişdir. Bunlar 6 nəfərdir. *(Müsahibimiz bu yerdə həmin şəxslərin adlarını və tutduqları vəzifəni, statuslarını da açıqlayır. Amma etik səbəblərdən və «KİV haqqında» Qanunun tələblərini nəzərə alaraq, onları oxuculara çatdıra bilmərik. Müsahibə boyunca isə həmin şəxslər barədə "onlar" deyə bəhs olunacaq - red.)* 6 nəfərdən 2-sindən izahat alınmayıb. Bunlardan biri o qədər də maraq cəlb edəcək və mənimlə münasibəti olmayan şəxsdir. Digəri isə Bakı Şəhər Prokurorluğuna çağırılsa da, ora vəkillə getdiyi üçün heç bir izahat alınmayıb .

***- Onlar necə şantaj olunublar ki? Hansı formada?***

- Mən videobəyanatda demişdim ki mənim evimə gizli kamera yerləşdirilib və yataq görüntüləri çəkilib. Məsələn, bu şəxslərdən biri (ad çəkir - Y.M.) ona 20 oktyabrda ünvanladığım "sms"-i istintaqa təqdim etməyib. Bəlkə də istintaqa təqdim edib, amma "sms" barəsində heç bir məlumat yoxdur. "SMS"-də bu sözlər yazılmışdır: "Roşkaya (keçmiş nişanlısı Rövşənə Rəhimli - Y.M. ) deyərsən, o dediyi kimi etdim siçan dərmani və süd içdim".

***- Bunu siz yazmışdız?***

- Bu "sms" artıq mənim intihar etməyimin Xədicə İsmayılla heç bir əlaqəsi olmadığını ortaya çıxarırdı. Bəli, bu "sms"i mən sonradan istintaqa çağırılan şəxslərdən birinin şəxsi nömrəsinə yazmışdım. Nədənsə bu "sms" haqqında heç bir məlumat yoxdur.

***- Niyə belə "sms" yazmışdız ki? Sizə dərman içmənizi Rövşənə xanım məsləhət görmüşdü ki?***

- Aramızda söz-söhbət olmuşdu. Demişdi ki, süd ilə siçan dərmanı içəcək. O içməsin deyə bunu mən etmişdim.

***- Niyə süd ilə?***

- "Sink fosfid" su ilə reaksiyaya tez gedir. Süd yağlı olduğu üçün zəhərin dadı və təsiri su içəndən sonra baş qaldırır. Yəni tədricən. Rahat bir üsuldur. "Sink fosfid" bir növ karbiti xatırladır.

Googlda axtarış etsəniz daha çox məlumat əldə edə bilərsiz.

***- Tural bəy, şantaj olunan şəxslərdən nə tələb olunub? Video ilə şantaj olunanları nəzərdə tuturam.***

- Tələb olunub ki, bütün baş verənlərin günahının Xədicədə olması barədə ifadə versinlər. Məni rəhbər göstərərək bildiriblər ki, baş verənlərin hamısında Xədicə günahkardır. İfadələrlə tanış olanlar bunu bilirlər. Vəkillər vəsatət qaldıranda bu barədə çox danışıblar. Onlardan tələb olunub ki, məhkəmə zalına gələrək, mən verdiyim ifadələri təsdiq eləsinlər. Yəni mənə istinad edərək bildirsinlər ki, mənimlə bağlı baş verən intihar hadisəsinin səbəbkarı Xədicə İsmayılovadır. Xədicə xanımın vəkilləri bu şəxslərin ifadələrinin cinayət işindən çıxarılması üçün vəsatət qaldırdılar, təmin olunmadı. Hər şey ortadadır. Əvvəlcədən bu iş qurama idi. Bilinirdi ki, nə nədir. Amma mənim müəyyən müddət susmağımın da səbəbi vardı ki, bu, hara qədər davam edəcək. Yəni kimlər daha çox sosial şəbəkələrdə və digər insanların arasında nələr deyəcəklər. Çox maraqlı oldu ki, həmin şəxslərdən bir neçəsi mənə qarşı böhtan olduğunu bilə-bilə, sübutların onların özündə olmasına baxmayaraq, bundan istifadə etmədilər. Məsələ də bu yerə gəlib çıxdı.

***- Yəni deyirsiniz ki, adını çəkdiyiniz şəxslər istintaqda sizin intiharınıza Xədicə İsmayılovanın səbəb olması barədə ifadə veriblər? Daha dəqiq desək, yaxın dostları Xədicə xanımın üzünə durublar.***

- Bəli. Bakı Şəhər Prokurorluğunda verilən izahatlar dəfələrlə dəyişdirilib. Mən ilk gündən verilən ifadələrin hamısı ilə tanış olmuşam. Hansı ifadələr verilib, sonra hansı ifadələrlə əvəz olunub. O izahatları oxuyan adamlar bunu bilir. Avqustun 7-dəki məhkəmədə hər şey ortaya çıxacaq, mən öz ifadəmdə hər şeyi açıqlayacam. Mən oktyabrın 20-də bayaq haqqında danışdığım adamlardan birinə sözügedən "sms"i yolladım. Bu, artıq sübut idi ki, mənim intiharımda Xədicə xanımın heç bir rolu yoxdur. Bu sübut ya bilərəkdən gizlədilib, ya da təzyiq altında gizlədilib. İki variantdan biridir.

***- Yəni bu, sizin ehtimalınızdır ki, Xədicə xanımın adını çəkdiyiniz dostları şantaj olunub. Burda şantaj versiyası olmaya da bilər.***

- Mən artıq o videogörüntüləri görmüşəm. Mən deyə bilmərəm ki, onları o video ilə şantaj ediblər ya yox. Məsələn, adını çəkdiyim şəxslərdən biri polis orqanlarından birində müstəntiq köməkçisi kimi çalışır. Ola bilər ki, onu işdən çıxarmaqla bağlı şantaj ediblər.

***- Onların hamısı sizin evinizdə olublar? Ayrı-ayrı vaxtlarda, siz evdə olmayanda ora necə giriş əldə ediblər?***

- Dostlarım olublar, evin açarı onlarda da olub. Mən o evi jurnalist Cavid Abdullayevlə bir yerdə tutmuşam. Meydan TV-dən çıxandan sonra. Biz orda çalışan vaxt elə kanalın ofisində qalırdıq. Amma oradan çıxandan sonra ev tutduq. Adını çəkdiyim şəxslər də o evdə olublar. Mən öz nişanlımla, bir başqası sevgilisi ilə...

***- Bəs kameranı ora kim yerləşdirib?***

- Mən onu deyə bilmirəm.

***- Hər halda, ilkin ehtimallar videonu sizin yerləşdirmənizlə bağlı səsləndi. Xədicə İsmayılova ilə bağlı verdiyiniz ilk ifadələri nəzərə alanda, bu versiya daha çox yayıldı.***

- Mən niyə yerləşdirməliyəm ki? Bunun mənimlə heç bir əlaqəsi yoxdur. Elə bir şey olsa deyərdim ki, videonu mən çəkmişəm. Amma mən o videoları görəndə şoka düşdüm.

***- Sizə o özəl videogörüntüləri göstərdilər?***

- Bəli.

***- Məqsəd nə idi?***

- Mənə göstərdilər, çünki təzyiq vasitəsi idi. Xüsusən də mənim özümə qarşı. Aydın məsələdir ki, azərbaycanlıyıq, mentalitet qaydaları var. Mən bu mentaliteti qəbul etməsəm də, bizdən böyüklər, eləcə də çevrəmiz var. Biz onları nəzərə almalıyıq.

***- Sizə videoları göstərib nə dedilər?***

- Mənə videoları göstərib dedilər ki, bu videolar yayılacaq. Mən buna etiraz etdim. Ailə örnəyində pis nümunələrə yol açmasın deyə mən bu videoların yayılmasının qəti əleyhinə idim. Ona görə də bir müddət buna görə susmalı oldum. Hamı da bunu bilirdi. Bəlkə o adamlardan bəzilərinə bu göstərilib, bəzilərinə başqa şey deyilib. Amma bu dəqiqdir ki, həmin videolardan istifadə olunub.

***- Videonu sizə göstərərək, "dediklərimizi etməsəz, bunu yayacağıq" deyən şəxs kim idi?***

- Bunlar Bakı Şəhər prokurorunun birinci müavini Azər Əsgərov və müstəntiq Vaqif Süleymanov idi. Daha bir məqamı da deyim. Burda qəribə epizodlar yaranıb. Mən ilk dəfə Ruhi Əsəb Dispanserində olanda, özüm könüllü surətdə ilk dəfə ora gedəndə evimizdə axtarış aparılmışdı. Hansı səbəbdən axtarış aparılmışdı, mən onu bilmirəm. İntihara cəhd edən şəxs idim, mənim evimdə nə ola bilərdi ki? Həm Göyçayda, həm də Bakıda yaşadığım xalamgilin evində. Oradan müxtəlif nüsxələrdə videolar, sənədlər, REAL hərəkatına aid anket blankları, oğluma məxsus olan noutbuk aparılmışdı. Artıq kənardan da təzyiqlər başlayır. Göyçayda hazırda bir neçə şəxs saxlanılıb. Onlar bildirirlər ki, mən narkotikdən istifadə, satışını təşkil etmə işlərində iştirak etmişəm.

***- Sizi narkotiklə tutmaq istəyirlər?***

- Bəli. Qorxudurlar ki, belə ola bilər. Amma heç nədən qorxmuram. Həbsdirsə, olacaq. Heç nədən qaçmaq mümkün deyil bu ölkədə. Mən məhkəmədən qayıdandan sonra, ayın 27-də atamla danışdım. Ona da bildirdim ki, vəziyyət nə yerdədir. Mən növbəti məhkəmə iclasında da 2014-cü il dekabrın 27-də oğurlanmağım barədə öz fikrimi bildirəcəm.

**Yazıda adları çəkilən, barələrində iddialar irəli sürülən hər bir kəsin fikirlərini dərc etməyə hazırıq.**

❑ **"Yeni Müsavat"**

**Seçkilərə start verilməsinə az bir müddət qalmasına baxmayaraq hələ də ölkədə seçki mühiti hiss olunmur. Partiyalardan fərqli açıqlamalar gəlir. Seçki mühitinin, Seçki Məcəlləsinin dəyişmədiyini əsas gətirərək seçkilərə qatılmayacaqlarını bəyan edənlər də, seçkilərə hazırlıq görən müxalifət partiyaları da var. Seçkiyə ciddi hazırlaşan partiyalardan biri də Ümid Partiyasıdır. Namizədliyi partiya tərəfindən 72 saylı Yardımlı-Masallı seçki dairəsindən irəli sürüləcək. Ümid Partiyası sədrinin birinci müavini Ənvər Ağazadə parlament seçkilərinə hazırlıqla bağlı partiyanın mətbuat xidmətinin suallarını cavablandırıb:**

# "Seçiciyə gərəkən anda onun yanında ola bilən millət vəkili lazımdır"

**Ənvər Ağazadə:** "Mən əminəm ki, hakimiyyət düşərgəsində də seçki ilə bağlı vəziyyətin yaxşıya doğru dəyişməsini istəyən şəxslər var"

***- Ənvər bəy, avqust ayının 1-də Ümid Partiyasından namizəd olacaq şəxslərin müşavirəsi keçirildi. İşlər nə yerdədir, seçki hazırlığı sizi qane edirmi?***

- Ümid Partiyası olaraq bizim seçkiyə hazırlıqla bağlı xüsusi strategiyamız var. Biz heç vaxt seçkilərin başlanmasına rəsmi start verilməsini gözləmirik. Bir seçki bitən gün növbəti seçkiyə başlayırıq. Keçən il keçirilən bələdiyyə seçkilərindən dərhal sonra, parlament seçkilərinə hazırlıq işlərinə başlamışıq. Namizədlərin müəyyənləşməsində onların hər birinin irəli sürüləcəyi dairədəki resursları, qalib gəlmək imkanları dəfələrlə təhlil olunub. Əslində biz bələdiyyə, parlament və prezident seçkilərini bir-biri ilə əlaqələndiririk. Bələdiyyə seçkiləri parlament, parlament seçkiləri isə prezident seçkiləri üçün bir hazırlıq prosesi olur. Hər seçkidə qazandığımız, şəxsən tanıdığımız seçicilərin qeydiyyatı aparılır. Resurslarımıza əlavə olunur. Partiya sədrinin rəhbərliyi ilə keçirilən sonuncu müşavirədə bu vaxta qədər namizədlərin hazırlıq prosesi, görülən işlər, problemlər və avqust ayı ərzində qarşıda duran vəzifələr müzakirə olundu. Bəzi qərarlar qəbul edildi. Artıq bizim namizəd irəli sürəcəyimiz 60-dan artıq dairə var ki, burada da həm namizəd, həm imza toplayanlar, həm məşvərətçi səs hüquqlu üzvlər və müşahidəçi olacaq şəxslər müəyyənləşib. Müşavirədə qərara alınıb ki, bu həftə ərzində namizədlərimizin siyahısını mətbuat vasitəsilə ictimaiyyətə təqdim edək. Artıq seçkidə irəli sürəcəyimiz şüar , seçiciyə verəcəyimiz mesajlar da bəllidir. Seçkiyə hazırlıq işlərini isə mövcud şəraitə görə qənaətbəxş hesab etmək olar.

***- Şəxsən namizəd olacağınız dairədə vəziyyət necədir? Qələbənizə əminsinizmi?***

- Mənim namizədliyim partiya tərəfindən 72 saylı Yardımlı-Masallı seçki dairəsindən irəli sürüləcək. Heç bir tərəddüd etmədən mən bu dairəni seçmişəm. Qalib gələcəyimə də tam əminəm. Yardımlı rayonunda doğulub, böyümüşəm. Orta təhsilimi Yardımlıda almışam. Ən yaxın qohumlarım , dostlarım orada yaşayır. Onlar mənim seçicilərimdir. Partiyamızın istər Yardımlıda, istərsə də Masallıda çoxlu sayda üzvləri, məntəqə seçki komissiyalarında təmsilçiliyimiz var. Əlimizdə bütün məntəqələr üzrə seçici siyahıları və bizə səs verəcək şəxslərin siyahısı var. Təxminən üç ilə yaxındır ki, siyahımızda olan seçicilərlə fərdi iş aparırıq. Bu iş prinsipi partiyamızın müəyyən etdiyi seçki strategiyasıdır. Bizim digər namizədlər də bu prinsiplə işləyirlər.



**"Bu gün parlamentdə elə millət vəkilləri var ki, seçildikləri beş il müddətində nə parlamentdə bir kəlmə danışıb, nə də seçiciləri ilə görüşüblər"**

***- Seçkilərin başlamasına çox az vaxt qalıb, amma əvvəlki illərdən fərqli olaraq ölkədə seçki mühiti hiss olunmur. Əhalinin də seçkilərə inamı azdır. Belə şəraitdə sizdə bu inam, yüksək əhval -ruhiyyə haradan qaynaqlanır?***

- Tamamilə doğrudur. Bu gün ölkədə seçki əhval-ruhiyyəsi hiss olunmur. Bunun bir çox obyektiv və subyektiv səbəbləri var. Demək olar ki, əksər seçicilərdə belə rəy formalaşıb ki, seçkilər ədalətli və demokratik keçirilmir. Hakimiyyət kimi istəyirsə, o da qalib olur. Bu rəyi uzun illər hakimiyyət formalaşdırıb. İnsanların seçkilərə, hətta özlərinə güvəni azalıb. Bu çox acınacaqlı bir vəziyyətdir. Seçib-seçilmək vətəndaşların ən ali hüquqlarıdır. Vətəndaş hüququnun pozulduğunu görəndə onun hüququnu qorumalı olan dövlətə qarşı məhəbbət hissi azalır, güvəni itir, biganələşir. Bizim vəzifəmiz bu vəziyyəti yaxşıya doğru dəyişməkdir. İnsanlarda özlərinə və seçkiyə inam yaratmaqdır. Vətənə, dövlətə məhəbbət hissini formalaşdırmaqdır. Ona görə də işimiz həddindən artıq çox və şərəflidir. Sevindirici hal ondan ibarətdir ki, bizim kimi düşünən insanların sayı günbəgün artır. Dünənə kimi bizi, partiyamızı tənqid edənlər bu gün ən doğru yolu siz tutmusunuz, ən ağıllı siyasəti siz aparırsınız deyirlər. Xüsusilə gənclərin sayı sıralarımızda günbəgün artır. Mən əminəm ki, hakimiyyət düşərgəsində də seçki ilə bağlı vəziyyətin yaxşıya doğru dəyişməsini istəyən şəxslər var. Bu gün parlamentdə elə millət vəkilləri var ki, seçildikləri beş il müddətində nə parlamentdə bir kəlmə danışıb, nə də seçicilərilə görüşüblər. Seçiciyə lazım olanda onun yanında ola bilən, probleminin həllinə çalışan millət vəkili lazımdır. Bizim üçün sədrimiz İqbal bəyin simasında çox gözəl bir təcrübə var. Həm millət vəkilinin fəaliyyəti, həm də seçkiləri qazanmaq təcrübəsi. Bununla yanaşı dairədə seçicilərlə gördüyümüz işlər, əldə etdiyimiz nəticələr bizə güvənli danışmağa əsas verir.



# Ümid Partiyası parlament seçkilərinə dair müzakirə apardı

**Avqustun 1-də Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadənin yanında müşavirə keçirilib. Müşavirədə Ümid Partiyasından parlament seçkilərində namizədliyi irəli sürüləcək şəxslər iştirak edib. Partiya sədrinin rəhbərliyi ilə keçirilən müşavirədə bu vaxta qədər namizədlərin hazırlıq prosesi, görülən işlər, problemlər və avqust ayı ərzində qarşıda duran vəzifələr müzakirə olunub. Bəzi qərarlar qəbul edilib. Partiya sədri növbəti mərhələ üçün namizədlərə tapşırıq və tövsiyələr verib.**











# Fillərin teatrı

Zamin HACI
zaminhaci@gmail.com

"Siz haçansa çaxır butulkası açmısınız? Lənət şeytana, səsi ləzzət eləyir! Bəs ilikli sümük tapan it görmüsünüz? (Platon deyirdi ki, it - dünyadakı ən fəlsəfi heyvandır). Əgər görmüsünüzsə, o zaman həmin itin sümüyü necə qısqanclıqla qoruduğunu, necə razılıqla quyruq bulayıb ehtiyatla ağzına aldığını, necə marçıltı ilə gəmirdiyini, necə həvəslə sümürdüyünü də görmüsünüz. Buna onu nə məcbur edir? O, nəyə ümid edir? Hansı xeyri tapacaq? Bir damcı beyindən başqa demək olar heç nə".

**(Fransua Rable, "Qarqantua və Pantaqruel")**

**İl olmuş 2015, azərbaycanlılar hələ də "şortik" mövzusunu müzakirə edirlər. Bəziləri deyir belə geyinmək olmaz, bəziləri deyir əcəb eləyirik. Hətta normal dövlətlərdə cəmiyyətdən təcrid edilib müalicəyə göndərilməsi zəruri olan, bizdə isə yapistlərin dəstəyi ilə siyasi partiya qayırmış bir gerizəkalı qısa şalvar geyinənlərin ayağına yandırıcı turşu atmağa çağırıbmış. Sonra media bu "qabaqda gedən zəncirli"nin özünün şortikli şəkillərini tapıb dərc elədi. Bu dərəcədə bekarçılıqdır yəni.**

Mən bu müzakirələrə baxanda fikirləşdim ki, vaxt gələcək, biz başqa planetlərə köçəcəyik, amma o zaman da azərbaycanlılar "Marsda şortik geymək Allaha xoş gedərmi" mövzusunda diskussiya edəcəkdir. Yəni bu bizim alın yazımızdır, karmamızdır, hara fırlansaq xeyri yoxdur. Gəlib təzədən yaxamızdan yapışacaq.

Misal üçün, özünü filosof adlandıran bir lətifə personajı keçən ay Ramazan vaxtı demişdi: "Dünyada 1 milyard yarım müsəlman var. Bu insanlar gündə maye qəbul etmirsə, normada hər bir insan azı 2 litr maye qəbul etməlidir, belə olan halda dünyada gündə 3 milyard litr içməli suya qənaət olur. 30 gün üçün hesablasaq, 90 milyard litr su olacaq. Müsəlmanlar 1 ayda Xəzər dənizinin həcmi qədər dünya ekologiyasına xidmət edir, içməli suya qənaət edir". Eynilə "Amerikanlar Aya endilər, biz Günəşə kosmonavt göndərək, yanmasın deyə gecə göndərək" süjetli sovet lətifəsinin təkrarıdır.

İndi sən bu adama nə deyə bilərsən? 70 yaşı var e! İndən belə desən nə xeyri olacaq?

Son günlər teatr sənayemizdə də qeyri-adi yay aktivliyi müşahidə olunmaqdadır, halbuki qabaqlar yay aylarında aktyor və aktrisalarımız, rejissor və manıslarımız yuxuya gedirdilər. Bəlkə də cənab prezident neft pulu azaldığı üçün mütrüblərin xalq artisti adını, təqaüd və medallarını kəsibdir, o üzdən qırğın gedir. Görkəmli sənətkarlarımızın dialoq və monoloqlarına, bir-birinə dediyi itin sözlərinə yalan olmasın, Şekspir həsəd aparardı.

Örnək üçün, açırsan bir saytı, görürsən xalq artisti əməkdar rejissora deyir: "Dilini qoy qarnına". Bəh-bəh... Ziyalılığa bax! Sonra girirsən ayrı sayta, orda korifey sənətkarımız bir az yaşca balaca qalifey sənətkarı qoyub qabağına, cəmdəyinə döşəyir: "Əə, sən haranın tulasısan, bizim qastrol pulumuzu kəsirsən? Keçən dəfə rayona gedəndə kababı icra başçısı aldı, bu alçaq isə kamandirovçnini basdı yedi". Sonra jurnalist bir link qoyur, deyir baxın, orda artistlər baş rejissorun üzünə tüpürübdür. Baş vurursan həmin, necə deyərlər, sözügedən linkə, burda isə el anası, səhnəmizin Ofeliyası, Karmeni, Tomrisi, Medeyası aktrisa Millibəyim xalanın öz tuman bağı ilə teatrın direktoru Güllübəyim xalanı boğması səhnəsinə rast gəlirsən. Amma insafən saytlar belə şeylərin üstündən "18 +" yazırlar. Sağ olsunlar, yoxsa mentalitetimiz zibil olar.

Qəzet yazır ki, teatrın baş rejissoru səhnədə dönər satan aparat quraşdırıb. Bir ayrı qəzet isə aktyorların qrim otağında pulla domino oynadığını qeyd edir. Bir azman sənətkar deyir mən filəm, teatrın direktoru isə qarışqadır. Direktorun cavabı ləngimir: "Sən heç filin... xortumu da deyilsən!"

Əlbəttə, bütün bu diskussiyalar incəsənətimizi qabağa aparır. "İncəsənət" sözünün içində "çənə", "cəsəd" sözləri var. Mədəniyyətdəki "mədə" sözünü də ta özünüz bilirsiniz. Mirşahin müəllimin bazarına girmək olmasın, sənətkarlarımız çənələşməli, mədə uğrunda savaşmalıdır, yoxsa sənət çökər, yerdə cansız cəsədlər qalar.

---

**Keçmiş milli təhlükəsizlik naziri Nəriman İmranovun və Rusiyanın sabiq ədliyyə işçisi İlqar Qasımovun "Avrasiya Hərəkatı" yaratması ölkəmiz əleyhinə daha bir təhlükənin anonsu kimi qiymətləndirilir. Azərbaycan mətbuatı bu hərəkatı birmənalı olaraq Rusiyanın ölkəmizə qarşı növbəti provokasiyası, Putinin yaratdığı Avrasiya İttifaqının Azərbaycan cəmiyyəti arasında təbliğatı üçün ortaya çıxdığı qurum olaraq təqdim edir.**



Sərdar Cəlaloğlu



Gülağa Aslanlı



Yusif Bağırzadə

# Müxalifətdən "Avrasiya Hərəkatı"na sərt ittihamlar

## İlqar Qasımov vaxtilə ADP-də Ali Məclis sədri postuna necə gəlibmiş?; Sərdar Cəlaloğlu: "Onu çox yaxşı tanıyıram, yalançının, fırıldaqçının biridir, Azərbaycanda Rusiyanın maraqlarını müdafiə edir"

Parlament seçkiləri ərəfəsində, eyni zamanda Rusiyanın Azərbaycanı Avrasiya İttifaqına qoşmaq üçün böyük səylər göstərdiyi zamanda adları Rusiya kəşfiyyatına, hərbi dairələrinə bağlı olan şəxslərin təşəbbüs qrupu yaratması təsadüfi deyil. "General" ayamalı İlqar Qasımov Azərbaycanı yenidən Kremlin təsir dairəsinə qaytarmağa çalışan siyasətçilərdən biri kimi tanınır. Onun yeni ideyadaşı, sabiq milli təhlükəsizlik naziri Nəriman İmranov haqda isə bunu demək olmaz.

Ömrünü Rusiya Dövlət Təhlükəsizlik Komitəsinin (DTK-KQB) divarları arasında keçirən çekist N.İmranov 1992-ci ilin yazında, fəxri təqaüdə çıxmasına 6 ay qalmış doğma DTK divarları onu sıxmağa başlayıb. 24 il 6 aylıq xidmətdən sonra N.İmranov istefa verib və Azərbaycana gəlib. N.İmranovun bu hərəkətinin vətənpərvərlik hisslərindən qaynaqlandığını deyənlər az keçmədi ki, yanıldıqlarını başa düşdülər.

Ölkədə siyasi gərginliyin olduğu bir vaxtda N.İmranovun dönüşü haqda o dövrün siyasi hakimiyyəti, AXC iqtidarı da məlumatlı olub. Bu dönüşün heç də yaxşı nəticələr verməyəcəyini təxmin etsələr də, lazımi addım atmağa tələsməyiblər. Hakimiyyətdəkilər qərar qəbul etməyə tələsmədikləri bir vaxtda N.İmranov gözlənilənlərin əksinə olaraq Gəncəyə yollanıb.

Milli hakimiyyət devrildikdən sonra məlum olur ki, N.İmranov qiyamçı polkovnik Surət Hüseynovun əsas məsləhətçilərindən olub.

1993-cü ilin yayında AXC hakimiyyətinin süqutundan sonra, iyulun 3-də Nəriman İmranov milli təhlükəsizlik naziri vəzifəsinə təyin edilib. 1994-cü ilin may ayının 15-də ona general-mayor rütbəsi verilib.

1994-cü il oktyabr ayının 15-də N.İmranov bir qrup şəxsin MTN-in təcridxanasından qaçırılmasının təşkilində iştirakda, vətənə xəyanətdə təqsirləndirilərək həbs olunub və ömürlük azadlıqdan məhrum edilib. 2002-ci ildə prezident Heydər Əliyev N.İmranovu əfv edib və o, azad olunandan sonra Rusiyaya yollanıb. Bu illər ərzində N.İmranovun adı gündəmə 4 iyun qiyamı ilə bağlı xatirələrdə gətirilirdi. N.İmranov isə Rusiyada oturub susmağa üstünlük verirdi.

Onun yenidən siyasi səhnəyə qayıtmasını öz saatını, vaxtını gözləməsi kimi də dəyərləndirmək olar.

Nəriman İmranovun gözlənilmədən ictimai-siyasi fəaliyyətə başlaması yeni və daha təcrübəli kadrların Azərbaycan uğrunda mübarizəyə qoşulması kimi də qiymətləndirilir. Görünən odur ki, Rusiya siyasi dairələri Azərbaycanı öz nüfuz dairəsinə qaytarmaq üçün yeni oyuna başlayıblar. Komandanın başçıları ortadadır, onların ətrafına toplaşacaq üzvlərinin meydana çıxmasına da elə də çox vaxt qalmayıb.

Azərbaycanın demokratik müxalifət qüvvələrinin "Avrasiya Hərəkatı"na münasibəti isə sərtdir.

**Bu barədə danışan ADP sədri Sərdar Cəlaloğlu bildirdi ki, "Avrasiya Hərəkatı" Azərbaycanı Rusiyanın köləliyinə salmaq üçün təbliğat aparmağa xidmət edən qurum kimi yaradılıb:** "1996-cı ildə ADP ilə Ədalət Partiyası birləşəndən sonra İlqar Qasımov təxminən iki il bizim partiyanın Ali Məclisinin sədri olub. O, Ədalət Partiyasının üzvü kimi gəlmişdi. Sonra İlyas İsmayılova da xəyanət etdi. Onu partiyadan uzaqlaşdırdıqdan sonra Azərbaycanı tərk edib Rusiyaya getdi. Moskvada fırıldaq yolu ilə ədliyyə sisteminə daxil oldu və özünün dediyinə görə ədliyyə generalı rütbəsi alıb. Həmin status altında da çox maxinasiyalar həyata keçirib. Rusiya kəşfiyyatı da ardıcıl olaraq ondan istifadə edib. Mən onu çox yaxşı tanıyıram, yalançının, fırıldaqçının biridir. Onun ADP-dən çıxarıldıqdan sonrakı dövrlərdəki fəaliyyətini də izləyirəm. O, Rusiya kəşfiyyat orqanları tərəfindən "verbovka" olunmuş bir adamdır. İlqar Qasımov yalnız Azərbaycanda Rusiyanın maraqlarını müdafiə edir. Azərbaycandakı demokratik güclərin zəiflədilməsinə xidmət eləyən proseslərin içindədir. Təsadüfi deyil ki, KQB-nin Rusiyaya bağlı olan keçmiş rəhbəri ilə təşkilat yaradır. Hər ikisi təbii ki, Rusiya ilə bağlıdır. Moskva burada ən müxtəlif qurumlar yaradır, hakimiyyətin özünün içində Rusiyaya xidmət eləyən insanlar var. Hətta demokratik ad ilə Rusiyanın maraqları ilə uzlaşan qüvvələr var, belə qüvvələri tapıb təşkilatlandırırlar, məsələn, Milli Şura kimi. Eyni zamanda Avrasiya Hərəkatı kimi aç-aydın şəkildə Rusiyanı müdafiə eləyən qüvvələr də yaradılır. Azərbaycanda kifayət qədər keçmiş rus imperiyasının köləliyi xiffəti ilə yaşayan insanlar var. Psixologiya sübut edib ki, kölelikdən azad olan insanların sırasında dərin köləliyə məruz qalmış insanlar kölelik xiffəti ilə yaşayırlar. Rusiya da həmin insanları öz ətrafına çəkib özünün buradakı maraqlarının müdafiəçisinə çevirə bilir. İndiki halda İlqar Qasımov da birmənalı şəkildə Rusiyanın maraqlarını müdafiə məqsədi güdən birisidir".

**AMİP sədri Yusif Bağırzadə də "Avrasiya Hərəkatı"nı yaradan adamların Rusiya tərəfindən təlimatlandırıldığını və onlara cəmiyyətin birmənalı olaraq yox deyəcəyini bildirdi:** "İlqar Qasımov həmişə Azərbaycanda seçkilər öncəsi hansısa təşkilatlar yaratmaq, nələrsə etmək cəhdində bulunur. Ancaq Nəriman İmranovun 15 il sonra qəfil peyda olması artıq başqa şeylərdən xəbər verir. Onların yaratdığı quruma cəmiyyətdə, müxalifətdə inam yoxdur və ola bilməz. Azərbaycan dövləti Avropaya inteqrasiya etməlidir. Azərbaycanı Rusiyanın əsarəti altına sürükləmək istəyən qurumlara və şəxslərə dəstək ola bilməz. Biz AMİP olaraq belə təşəbbüsləri pisləyirik. Aidiyyəti dövlət orqanları Avrasiya Hərəkatı kimi qurumların fəaliyyətini, onu yaradanların addımlarını ciddi nəzarətdə saxlamalıdır, gərəkəndə ciddi tədbirlərə əl atmalıdır".

**Müsavat Partiyası İcra Aparatının rəhbəri Gülağa Aslanlı bildirdi ki, təmsil olunduğu partiya heç bir halda, heç bir şərtlə "Avrasiya Hərəkatı" adlanan bir quruma qoşulmaq, ona müsbət münasibət bəsləmək niyyətində deyil:** "Çünki həmin qurumun dəstək verdiyi Avrasiya İttifaqı ideyası Azərbaycana uğur gətirən məsələ deyil. Müsavat Partiyasının həmin adla olan hər hansı bir təşkilatda olması, ona müsbət yanaşması mümkün deyil. Biz dəfələrlə bəyan etmişik ki, Azərbaycanın yolu avrointeqrasiya olmalıdır. Azərbaycanın çıxış yolunu, gələcəyini Avropaya ineqrasiyada görürük. Avrasiya məsələsi isə heç vaxt Müsavat tərəfindən dəyərləndirilməyib. Əgər kimlərsə, Avrasiya adı altında təşkilat yaradırsa, biz hesab edirik ki, həmin təşkilat Azərbaycan dövlətinə zərərli işlərlə məşğul olan qurum olacaq. Onun adından da bu qənaətə gəlmək mümkündür. Müsavat Partiyası bu məsələni yəqin ki, Divanda da müzakirə edib mövqeyini ortaya qoyacaq. Mən hesab edirəm ki, Avrasiya adı altında yaradılmış təşkilat Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, demokratiyanın qurulması istiqamətində hər hansı müsbət addım atmayacaq".

**E.SEYİDAĞA**

### Kreml qaz müharibələrində taktikanı dəyişir

# Putinin Ərdoğana qarşı "at gedişi" və Bakının uduşu

## Rusiyanın Türkiyə və Qərbə "Şimal axını" layihəsi ilə yeni təzyiq planının pərdəarxası; TAP-ın yolu daha da açılır, ancaq...

**Rusiya prezidenti Vladimir Putinin saxta "erməni soyqırımı"nın 100-cü ildönümü ilə bağlı İrəvanda keçirilən tədbirə qatılmasını Türkiyə hələ də ona bağışlaya bilmir. Hər halda, bu addım iki ölkənin münasibətlərində soyuqluq yaratmaqda davam edir. Bunu Ankarada ötən bazar keçirilən Ümumdünya Krım Tatarlarının II Konqresi bir daha təsdiqlədi.**



Söhbət toplantının Türkiyə paytaxtında keçirilmə faktının özündən, orada Krım tatarlarının lideri Mustafa Cəmiloğlu başda olmaqla, çıxışçıların Rusiya əleyhinə səsləndirdiyi kəskin və qıcıqlı fikirlərdən, prezident Rəcəb Tayyib Ərdoğan və baş nazir Əhməd Davudoğlunun toplantı iştirakçılarına təbrik-müraciətlərindən gedir. Həmin müraciətlərdə Türkiyənin Krımı işğalı pislənilir və Ankaranın heç vaxt bu işğalla barışmayacağı bildirilir.

Yada salaq ki, Putinin 24 aprel İrəvan səfəri rəsmi Ankaranın sərt reaksiyasını doğurmuş, prezident Ərdoğan, həm baş nazir Davudoğlu və XİN səviyyəsində kəskin bəyanatlara səbəb olmuşdu. Bunun nəticəsi idi ki, Ərdoğan II dünya savaşında qələbənin 70 illik törəni ilə bağlı Moskvaya səfər dəvətini geri çevirmişdi.

Ən önəmlisi, Putinin İrəvan yanlışı bəzi rusiyalı ekspertlərin və siyasətçilərin də etiraf elədikləri kimi, yüksəlişdə olan Moskva-Ankara iqtisadi-energetik əlaqələrə zərbə vurmuş oldu. Məhz 24 apreldən sonra qardaş ölkənin konkret olaraq "Türk axını" ilə bağlı şərtləri xeyli sərtləşdi. Nəticədə layihə ilə bağlı hökumətlərarası ("Qazprom"-BOTAŞ) ilkin sənədin imzalanması aylardır yubanır.

***

Maraqlıdır ki, Rusiya ilə Türkiyə arasında hay-küylü "Türk axını" qaz boru kəmərinə dair danışıqların düyünə düşdüyü vaxtda "Qazprom" Avropaya çıxış üçün yeni dəhliz açmağa çalışır. Məlum olub ki, "Qazprom"la Almaniyanın "Wintershall" şirkəti Baltik dənizinin dibindən keçən "Şimal axını" qaz kəmərinin buraxılış gücünün artırılmasına dair öz aralarında sakitcə memorandum imzalayıblar (virtualaz.org).

Memorandum barədə məlumatı alman tərəfinin yaydığı bildirilir. Söhbət "Şimal axını-2" yeni qaz kəmərinin tikintisindən gedir. Bu kəmərin marşrutu 90 faiz "Şimal axını" kəmərinin marşrutunu təkrarlayır. Buraxılış gücü isə təxminən "Türk axını" kəmərinin buraxılış gücü qədər olmalıdır - ildə 55 milyard kubmetr.

Bundan əvvəl, iyunun 18-da Peterburqda keçirilən beynəlxalq iqtisadi forum çərçivəsində "Qazprom" E.ON, "Shell" və OMV şirkətləri ilə "Şimal axını" kəmərinin ikinci hissəsinin tikintisinə dair anlaşma memorandumu imzalamışdı. İndi bu anlaşmaya "Wintershall"ı cəlb etməklə Rusiya qaz nəhəngi nümayiş etdirir ki, layihəni həyata keçirməkdə niyyəti ciddidir və Türkiyənin "Türk axını" kəmərinə dair ağır şərtlər irəli sürməsi rus qazının Ukraynadan yan ötməklə Avropaya ötürülməsinə dair planlara mane olmayacaq.

***

Bəs Kreml "Cənub axını" layihəsini Avropa Komissiyanın yaratdığı əngəllərə görə dayandırmağa məcbur olandan, Avropa Birliyinin və ABŞ-ın əleyhinə olduğu "Türk axını" layihəsinə dair danışıqlar dalana dirənəndən sonra üçüncü dəfə uğursuzluğa düçar olmayacaq ki?

Məsələ ondadır ki, "Şimal axını-2" qaz boru kəmərinin tikintisi artıq fəaliyyət göstərən "Şimal axını" kəmərinin genişləndirilməsi layihəsi kimi nəzərdə tutulduğundan Avropa Komissiyasının razılığı tələb olunmur. Bu layihəni həyata keçirmək üçün Almaniyanın dövlət dağ-mədən, geologiya və təbii resurslar idarəsinin, habelə energetika nazirliyinin razılığı kifayətdir. Və "Şimal axını" konsorsiumunun operatoru olan E.ON şirkəti üçün belə razılığı almaq çətin olmayacaq.

Həmçinin ABŞ-ın bu layihəyə mane olmaq imkanları məhduddur. Doğrudur, amerikalılar qaz məsələlərində intriqa yaratmağın ustasıdırlar və artıq sübut ediblər ki, "Qazprom"un planlarını poza bilirlər. Lakin "Qazprom" bu dəfə planlarını elə qurub ki, amerikalıların müdaxiləsi mümkün olmasın.

Digər maraqlı detal odur ki, "Şimal axını-2" kəmərini 2019-cu ildə istismara vermək nəzərdə tutulur. "Qazprom" dəfələrlə elan edib ki, nə olur-olsun, həmin müddətdən Ukraynadan Avropaya qaz tranzitini dayandıracaq. Əgər "Şimal axını-2" layihəsinə dair işləri irəli aparmaq mümkün olsa, o zaman "Qazprom" Türkiyə ilə "Türk axını" kəmərinə dair danışıqlarda güclü kozır əldə etmiş olacaq.

Məlum olduğu kimi, Türkiyə bu layihəyə dair mövqeyini bir neçə dəfə dəyişib, "Qazprom" tikinti işlərinə başlamaq üçün tələssə də, hökumətlərarası razılaşmanı imzalamaq mümkün olmayıb. Buna bir tərəfdən Türkiyədə AKP-nin parlamentdə hakim çoxluğu əldən verməsi və koalision hökumət danışıqlarının nəticəsiz qalması səbəb olub. Digər tərəfdən, Türkiyə kəmərin yolunu açmaq üçün maksimum mənfəət əldə etməyə çalışır, təkcə tranzit ölkə statusu ilə kifayətlənmək istəmir.

Ancaq indi ruslar nümayiş etdirir ki, Türkiyənin nazı ilə hərəkət etməyəcəklər və Avropaya yeni dəhliz açmaq üçün şansları var. Bu, Rusiyanın "Türk axını" layihəsində ağır şərtlər irəli sürən Türkiyəyə qarşı "atla gedişi" də hesab edilə bilər. Böyük ölçüdə siyasi mahiyyət daşıyan "Türk axını" kəmərinə nisbətən "Şimal axını-2"nin dəfələrlə ucuz başa gələcəyi də "Qazprom"un Ankara ilə danışıqlarda mövqelərini gücləndirəcək.

Belə ki, Baltik dənizinin dibindən yeni kəmərin çəkilməsi üçün 9 milyard avro tələb olunur, "Türk axını" isə bundan 3 dəfə baha başa gələcək. Lakin "Qazprom" bu layihəni irəli sürməklə "Türk axını"ından imtina etməz. Rusiya hər iki layihəni həyata keçirməkdə və beləliklə Avropanın qaz bazarında mövqelərini daha da möhkəmləndirməkdə maraqlıdır.

***

Xatırladaq ki, "Türk axını"nın marşrutu Azərbaycan qazının Avropaya nəqli üçün nəzərdə tutulan Cənub Qaz Dəhlizini (TAP) təkrarlayır. Rusiya bu layihəni irəli sürəndən etibarən Yunanıstanda və İtaliyada (Hər iki ölkədə Kremlin mövqeləri güclüdür) TAP kəmərinin tikintisini ləngitmək meylləri müşahidə olunurdu. İndi "Türk axını" danışıqlarının qeyri-müəyyən müddətə dayanması Cənub Qaz Dəhlizinə maneələri də aradan qaldıra bilər.

Əlavə edək ki, bugünlərdə "Türk axını" ilə bağlı Moskva ilə Ankara arşında danışıqların təxirə salındığı təsdiqlənib. Rusiyanın baş naziri Dmitri Medvedyev, Kremlin mətbuat katibi Dmitri Peskov bunu Türkiyədə yeni hökumətin hələ də formalaşmaması ilə əlaqələndirsələr də, səbəb əlbəttə ki, təkcə bu deyil.

Birinə toxunuldu - Türkiyə bu layihəyə təkcə iqtisadi proje kimi baxmır və yalnız tranzit ölkə qismində çıxış eləmək niyyətində deyil, həm də Avropa üçün əsas xab rolunda iddia edir və paralel olaraq qazın qiymətində güzəşt tələb edir. Ankaranın buna siyasi haqqı da çatır. Çünki sanksiyalar altında olan Rusiya ilə iqtisadi-energetik iş birliyinə razılıq verməklə özünü Qərbin, ələlxüsus Vaşinqtonun hədəfinə gətirmiş olur. Ərdoğan iqtidarının isə hazırda İŞİD, PKK problemləri ilə bağlı Qərbin, NATO-nun dəstəyinə ciddi ehtiyacı var.

Belə görünür, qarşıdakı payıza nəzərdə tutulan Putin-Ərdoğan görüşündə ikitərəfli münasibətlərdə açıq qalmış bu və başqa məsələlərin hamısına aydınlıq gələcək. Hər ikisi Amerikanın basqısını hiss edən Ankara və Moskvanın yolları birləşəcək, yoxsa ayrılacaq? Bir qədər gözləyək.

❑ **Analitik xidmət**

# Müxalifət ABŞ-la Kubaya görə dava edəcəkmi...

## Vaşinqtonun demokratiya düşməni elan etdiyi rejimlərlə yaxınlaşması birmənalı qarşılanmır

**ABŞ 54 ildir düşmən münasibətlərdə olduğu Kuba və 36 ildir düşmənçilik etdiyi İranla münasibətlər qurur. Son bir neçə ayda müşahidə olunan bu proses bu ölkələrin diplomatik münasibətlər yaratmasına qədər irəliləyib. Artıq Kubanın Vaşinqtonda səfirliyi açılıb, ABŞ-ın isə yaxın vaxtlarda Havanada səfirliyinin açılması barədə razılıq əldə olunub. İranda da ABŞ səfirliyinin bərpa ediləcəyi barədə xəbərlər yayılır.**

Bir sıra ölkələrin demokratik qüvvələri ABŞ-ın on illərdir demokratiyanın düşməni elan etdiyi ölkələrlə yaxınlaşmasının digər antidemokratik rejimləri arxayınlaşdıracağını düşünürlər və buna görə də Vaşinqtonu qınayırlar. Azərbaycanın demokratik qüvvələrinin ABŞ-ın bu addımını necə qarşıladığını araşdırdıq.



**Müsavat Partiyası İcra Aparatının rəhbəri Gülağa Aslanlı** bildirdi ki, bu addımlarına görə ABŞ-ı ittiham etmək doğru olmazdı. Çünki ABŞ hər hansı ölkə ilə münasibət qurursa əvvəlcə, özünün şərtlərini, qırmızı xətti həmin ölkələrlə razılaşdırır: "Məhz bundan sonra münasibətləri yaxşılaşdırır. Məsələn, İranla münasibətlərin yaxşılaşmasına səbəb 6-lar deyilən ölkələrlə bərabər danışıq aparıb İranın nüvə silahı istehsalı etməmək barədə müqaviləni imzalayandan sonra Vaşinqton İranla yaxınlaşma xətti götürdü. ABŞ-ın heç onun demokratiyanın, insan haqlarının və eyni zamanda xalqların təhlükəsizliyi baxımından olan şərtlərini qəbul eləməyən ölkələrlə münasibətlər yaradacağına inamım yoxdur. Amerika o ölkələrdə istədiyinə nail olandan sonra onlarla müəyyən münasibətləri yaxşılaşdırmağa cəhd edir. Bu da həm İranda, həm Kubada demokratiyanın inkişafına müəyyən təkan verə bilər".

**ADP sədri Sərdar Cəlaloğlu hesab edir ki, ABŞ-ın ənənəvi düşmənlərinə qarşı münasibətinin müsbətə doğru dəyişilməsi Amerikanın dəyişməsi demək deyil, həmin rejimlərin dəyişməsidir:** "Tehran Qərblə danışıqlara hazır olduğunu, müəyyən qarşılıqlı güzəştlərə getməyə hazır olduğunu bəyan etdi. Ondan sonra İranla Qərb arasında danışıqlar başladı. Eləcə də SSRİ-nin süqutundan sonra Kuba təklənmişdi. Əslində geopolitik nöqteyi-nəzərdən Kubanın ən yaxın dostu Amerika olmalıdır. Çünki dənizin ortasında ona ən yaxın əlverişli ölkə ABŞ-dır. Ona görə də ABŞ-la düşmən mövqeyində durmaqla Kuba özünü ağır vəziyyətə salırdı. Bunu Kuba rəhbərliyi başa düşdü və tədricən kommunist ideologiyasından imtina eləməyə və ölkədə islahatlar aparmağa başladılar. Bu islahatlar dünyaya açılmağı tələb etdiyi üçün Kuba rejimi bütünlükdə ABŞ-a qarşı siyasətdən imtina eləməyə və yeni siyasət aparmağa başladı. Amerika da buna qarşılıq verdi və artıq Kuba ilə əlaqələr yoluna qoyulur. ABŞ bununla dünyaya mesaj verir ki, ölkələr demokratiyaya doğru dəyişdikcə, dünya nizamına tabe olduqca, ABŞ-ın onlara münasibəti dəyişir. Yəni İran və Kuba kimi ölkələrə ABŞ-ın münasibətinin müsbətə dəyişməsi həmin ölkələrin davranışı ilə bağlıdır. Bu gün Kubanın dirçəlməsi, İranın güclənməsi Amerika ilə əlaqələrdən çox asılıdır. Mən düşünürəm ki, ABŞ-ın həmin ölkələrə münasibətinin dəyişməsi dünyadakı demokratiyanın boğulduğu digər ölkələrin rejimlərini arxayınlaşdıracaq".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 168 (6196) 4 avqust 2015



# Məğlubiyyətə hesablanmış gedişlər

Azər RƏŞİDOĞLU

**Parlament seçkilərinə hazırlıq hiss edilmir. Görünən budur ki, hakimiyyət seçki qanunvericiliyi ilə bağlı demokratik islahatlara gedəcək iradədə deyil. Müxalifətin isə elə bir gücü yoxdur ki, hakimiyyəti bu islahatlara getmək məcburiyyətində olsun.**

Seçkiyə günlər qalmış ölkədə situasiyanın dəyişəcəyinə də ümid azdır. Yenidən, daha fəal mübarizəyə atılmaq üçün cəmiyyətdən heç bir sifariş gəlmir. Kənardan görünən budur ki, yenidən müxalifətin aralıq müddətə blok yaratmaq cəhdləri müşahidə edilə bilər. Bunu elektorata müsbət mesaj saymaq mümkündür. Lakin tərəflər arasında münasibətlər o qədər korlanıb ki, belə mesajlar cəmiyyətin qıcığına səbəb olur. Bu prosesi daha ağrısız reallaşdırmaq olardı. İndiki şəraitdə birlik çağırışları kafi deyil. Aparıcı qüvvələrin birləşməsi özlüyündə pozitivdir. Lakin belə çağırışlar elektoratın ovqatını köklü şəkildə dəyişdirə biləcək gücdə deyil. Problem ondadır ki, ortada nə böyük ideyalar, nə də ki ictimai rəyi riqqətə gətirə biləcək etirazlar mövcuddur. Sanki hamı imitasiya ilə məşğuldur. Bir tərəf islahat imitasiyası həyata keçirir, qarşı tərəf isə mübarizə görüntüsü yaradır. İmitasiyanın özü o dərəcədə süst həyata keçirilir ki, ictimai rəy "qapalı dairədən" səslənən pıçıltıları belə eşidə bilmir. Ölkədə seçki ilinə xas olan siyasi fəallığın yoxluğu bədbinliyə qapılmağa əsas verir. Sanki bütün baş verənlər taleyin ümidinə buraxılıb. Hakimiyyət "harada qırıldı, qırıldı" tezisi ilə davranaraq, ölkənin demokratikləşdirilməsi istiqamətində demək olar ki, heç bir əməli addım atmır.

İqtidar opponentləri isə "Allah Kərimdir" ümidi ilə yaşayırlar. Proses yarada biləcək, sıradan bir hadisə sayılmayacaq addımlar atılmır. Son prezident seçkilərindən sonra ölkədə bir neçə etiraz aksiyası və gənc fəalların həbsindən başqa ölkəni titrədə biləcək hər hansı bir gediş edilməyib.

Yenə hamı bölgələrin qiyama qalxacağını, hakimiyyətin zülmündən təngə gələn insanların iqtidarı devirəcəyini gözləyir. Bir sözlə, siyasi münasibətlər subyekti kimi hakimiyyət və xalq çıxış edir.

Protest elektoratının cəmlənməsi istiqamətində heç bir əməli addım atılmır. Nə seçkiləri hədəf alan modellər, nə də ki etiraz elektoratını birləşdirə biləcək variantlar müzakirəyə çıxarılır.

Hakimiyyət özü üçün təhlükəli hesab etdiyi hər bir şəxsi təcrid edir. Bu baxımdan, onsuz da sayları o qədər çox olmayan fədakarların taleyi tükdən asılı vəziyyətdədir.

Vəziyyətin paradoksu ondan ibarətdir ki, bir yandan liderlərdən fəallıq və radikallıq tələb olunur, digər tərəfdən isə tərəfdarları hesablanmamış və divident gətirməyəcək təhlükələrdən xilas etmək lazım gəlir. Müxalifət təmsilçiləri nələrin baş verdiyini aydın şəkildə bilməli və çıxış yolları barədə reseptə malik olmalıdırlar.

Eyni taktiki gedişlər, yekcins etiraz aksiyaları təşəbbüsü, bir-birinin ünvanına yönələn atmacalar yalnız imitasiyaya xidmət edir. Seçkilərə o qədər az vaxt qalır ki, adi gedişlərlə böyük dəyişikliyə nail olmaq imkansız görünür. Kim bilir, bəlkə də elə bütün gedişlər də buna hesablanıb...

# Evlərin qiymətində artım gözlənilir - mənzil bazarı canlanır...

## Ekspertlər bildirirlər ki, ölkədə ipoteka kreditlərinin faizləri də aşağı salınacaq və maksimal məbləğ yüksəldiləcək




**"Avqustun sonlarında kirayə verilən evlərin qiymətində artım gözlənilir". Bunu daşınmaz əmlak üzrə ekspert Nüsrət İbrahimov "Trend"ə açıqlamasında deyib. Onun sözlərinə görə, bu il artım ötən illə müqayisədə çox olmayacaq. O bunu daşınmaz əmlak bazarındakı durğunluqla əlaqələndirir: "Ötən il 12 faiz artım olub. Ondan əvvəl 8, 2013-cü ildə isə 10 faiz olub. Yəni orta hesabla götürəndə hər il 10 faiz artım olur.**

Bu il avqustun axırı, sentyabrın əvvəllərində də artımın olacağı şübhəsizdir. Amma bu il bir az vəziyyət başqa cürdür. Daşınmaz əmlak bazarında durğunluq hökm sürür. Ona görə də bahalaşma təxminən 6 faizə qədər olacaq".

Ekspert kirayəyə ev axtaranların ən çox müraciət etdiyi yerləri də açıqlayıb. N.İbrahimovun sözlərinə görə, ən çox tələbat metro stansiyaları və ali məktəblərin ətraflarında təklif olunan evlərədir: "Kirayə ev axtaranlar daha çox ali məktəblərə yaxın əraziləri seçirlər. Bu, insanların komfort istəyi və şəhər yollarında nəqliyyatın sıx olmasından irəli gəlir. Yəni hər kəs hər gün evdən çıxarkən getdiyi yerin yaşadığı yerə yaxın olmasını istəyir. Qeyd edim ki, kirayə ev daha çox Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Texniki Universiteti və digər ali məktəblərin ətrafında axtarılır".

Ümumilikdə isə dövlət başçısı İlham Əliyevin bir müddət əvvəl verdiyi ipoteka açıqlamasının mənzil bazarının canlanmasına yardımçı olacağı bildirilir. **Ekspert Vüqar Bayramov** ipoteka ilə bağlı yeniliklər barədə danışarkən bildirib ki, Mərkəzi Bank ipoteka kreditlərinin təkmilləşdirilməsi ilə bağlı təklifləri Maliyyə Nazirliyi ilə razılaşdırıb. Baş bankdakı açıqlamalardan belə anlaşılır ki, müzakirədən kənarda qalan detallar yoxdur. Onun sözlərinə görə, rəsmi açıqlamalara əsaslansaq, yeni qaydaların sentyabr ayında təsdiq ediləcəyi gözlənilir.

"Dövlət başçısı Nazirlər Kabinetinin fəaliyyətinə həsr edilən son müşavirədə ipoteka proqramına əlavə 200 milyon manatın ayrılması ilə bağlı göstəriş verməklə yanaşı, hökumətə kredit şərtlərinin təkmilləşdirilməsini də tapşırmışdı. Mərkəzi Bankla Maliyyə Nazirliyinin yeni şərtləri razılaşdırması da məhz ölkə prezidentinin göstərişi ilə bağlıdır. Dəyişdiriləcək qaydalar həm ümumi ipoteka proqramının təkmilləşdirilməsinə, həm də regionların adıçəkilən kreditlərə çıxış imkanlarının artırılmasına xidmət edəcək" deyə, ekspert vurğulayıb.

**Onun sözlərinə görə, ipoteka kreditləri üzrə maksimum məbləğ 2 dəfə artırılaraq 100 min manata çatdırılacaq:** "Xatırladım ki, son illər əmlak bazarında qiymətlərin yüksəlməsini nəzərə alaraq ipoteka kreditləri üçüm maksimum məbləğin artırılmasını təklifini dəfələrlə təqdim etmişdik. Maksimum məbləğin azlığı proqramın səmərəliliyinə neqativ təsir göstərirdi. İkincisi, ipoteka kreditlərinin faiz dərəcələrinin aşağı salınacağı gözlənilir. Güman edilir ki, adi ipoteka kreditlərində 8 faiz 6 faizədək azaldılacaq. Sosial ipoteka kreditləri isə 2 faizlə təklif edilə bilər. Faiz endirimləri ilə yanaşı diferensial faizlərin də tətbiq edilməsi məqsədə uyğun olardı. Belə ki, paytaxtla müqayisədə rayonlarda həm adi, həm də sosial ipoteka kreditləri üçün daha aşağı faizin təklif edilməsi arzuolunan olmaqla yanaşı, proqramın regional səmərəliliyini də artıra bilər. Dövlət Statistika Komitəsinin məlumatına görə, bölgələrdə əhalinin orta aylıq əmək haqqı paytaxtla müqayisədə 2 dəfə azdır və bu da əhalinin ipoteka müraciəti üçün imkanlarının məhdud olmasına gətirib çıxarır. Nəzərə alaq ki, adi və sosial ipoteka üçün tələb edilən əmək haqqı məbləği adətən təxminən 700 manatdan çox olur. Bu isə az gəlirli bölgə camaatının bu imkandan yararlanmasını çətinləşdirir. Bu baxımdan, diferensial faizlərin tətbiq edilməsi rayonlarda yaşayan və ipoteka krediti götürmək istəyən vətəndaşlarımız üçün əmək tələblərini yumşaldacaq. Çünki faiz nə qədər az olarsa, tələb olunan əmək haqqı tələbi də aşağı düşür. Bu isə ona gətirəcək ki, 400 manat aylıq gəliri olan regionda yaşayan bir vətəndaş, bir gənc ailə rahat ipoteka kreditlərindən yararlana biləcək. Üçüncüsü, regionlara ayrılacaq ipoteka kreditinin məbləği üçün minimum hədlər müəyyənləşdiriləcək. Əslində İpoteka Fondu xətti ilə verilən həm adi, həm sosial ipoteka kreditlərinin ən azı 50 faiz regionlar üçün ayrılması məqsədəuyğundur. Məsələn, ay ərzində 5 milyon manat ipoteka krediti ayrılacaqsa, bunun yarısı- 2,5 milyon manatı məhz regionlar üçün nəzərdə tutulacaq. Bu da regionların ipoteka kreditlərindən istifadə imkanlarının genişlənməsinə səbəb olacaq. Burada məqsəd bütövlükdə ipoteka kreditləşməsi sisteminin təkmilləşdirilməsi ilə yanaşı, regionların kreditlərdən daha geniş miqyaslı istifadəsinə şərait yaratmaqdır".

**V.Bayramov vurğulayıb ki, hazırda ən çox müzakirə edilən məsələlərdən biri də məhz ilkin ödəniş məbləğinin yüksək olmasıdır:** "Hələlik Mərkəzi Bankın bu istiqamətdə hansı addım atacağı bəlli deyil. Amma bunun üçün iki praktikadan istifadə etmək niyyətindədir. Bunlardan birincisi, əmanət tikinti bankların formalaşdırılması və bununla bağlı ipoteka fondunun yaradılmasından, ikincisi, ipoteka fondu yanında ipoteka zəmanət fondunun formalaşdırılmasından ibarətdir. Bu isə imkan verəcək ki, zəmanət fondu vətəndaşlara 100 faizlik kredit verə bilsin. Praktiki olaraq vətəndaş artıq 80 faiz deyil, 100 faizlik ipoteka krediti əldə edə biləcək. Bütövlükdə nəzərdə tutulan dəyişikliklər müsbət olmaqla yanaşı, kreditlərə əlçatanlığı artıracaq. Deməli, ipoteka kreditləşməsi artıq yeni mərhələyə qədəm qoya bilər".

**Ekspert Pərviz Heydərov isə qeyd edib ki, ölkədə ipoteka kreditlərinə ayrılacaq vəsaitin artırılacağı, faizlərin aşağı salınacağı və maksimal məbləğin isə yüksəldiləcəyi deyilir:** "İpoteka kreditləri üçün ayrılan vəsaitin həcmini artırmaq, faizləri aşağı salmaq və maksimal məbləği qaldırmaq mümkündür və lazımdır. Ancaq sual olunur ki, bunun nəticəsində mənzil bazarında qiymətlərin daha da yüksəlməyəcəyinə zəmanət varmı. Təəssüf ki, yox. Məsələ bundadır ki, bizdə, mənzil bazarında qiymətləri heç də tələb ilə təklif qaydaları müəyyən etmir və tənzimləmir. Halbuki ölkədə mənzilə tələbat olduqca yüksəkdir. Ancaq bir var ki, ümumi tələb, bir də var ki, tədiyyə qabiliyyətli, yəni alıcılıq qabiliyyəti olan tələbat. Ölkədə mənzilə tələbatı olanların azı 70-80 faizi qeyri-alıcılıq qabiliyyətində olandır. Amma buna baxmayaraq, qiymətlər bahadır. Çünki mənzil bazarı ən çox "yatırım mənbəyi" rolunu oynayır Azərbaycanda, o baxımdan ki, necə deyərlər, tikən də, alan da əslində, elə eyni qrup və eyni təbəqənin adamlarıdır. Bunun müqabilində isə ipoteka kreditləşdirməsini "yüngülləşdirməklə" ölkədə əhalinin mənzilə həqiqi tələbatı olan həmin o 70-80 faiz hissənin də alıcılıq qabiliyyətini cüzi yüksəltməklə, ancaq və ancaq qiymətlərin bir az da yüksəlməsinə şərait yarana bilər. Daşınmaz əmlakın alqı-satqısına dair bu ildən bir sıra vergi qaydalarının tətbiqi və sair kimi tədbirlər mənzil bazarından gəlir və yatırım vasitəsi kimi istifadə edənlərin bazarını bir növ məhdudlaşdıracaq. Ancaq əsas hədəf bu olmalıdır ki, mənzillərin qiymətləri məhz süni amillər nəticəsində yaranmasın və "şişməsin". Yalnız o zaman ipoteka kreditləşdirilməsi şərtlərinin yüngülləşdirilməsi də əsas məqsədə xidmət edəcək".

❑ RÖYA



LİSENZİYA

№ 074430

Qeydiyyat nömrəsi 430 "10" 07 2013 il

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

(lisenziyanı verən dövlət orqanının adı)

mehmanxana və mehmanxana tipli obyektlərin fəaliyyətini

(fəaliyyətin növü)

həyata keçirməyə icazə verir.

Lisenziya verilib "Azərtunel"

(hüquqi şəxslər üçün - lisenziya verilən hüquqi

Məhdud Məsuliyyətli Cəmiyyətinə

şəxsin adı və hüquqi ünvanı; fiziki şəxslər üçün - adı, atasının adı, soyadı, şəxsiyyət

Bakı şəhəri, Məhəmməd Hadi küçəsi, ev 138

vəsiqəsinə dair məlumat (seriya, nömrə, kim tərəfindən və nə vaxt verilmişdir, ünvanı)

(Xaçmaz rayonu, "Bulaq" istirahət mərkəzi)

# "Bulaq" istirahət mərkəzindən aparılan oğlan və qızla bağlı yeni şok gəlişmə

## Vəkil danışdı: "...Baş verənlərdən şoka düşmüşük"

**Ötən həftənin ən səs-küylü olaylarından biri də iyulun 31-nə keçən gecə Nabrandakı "Bulaq" istirahət mərkəzində baş verən insident olub. Belə ki, mülki geyimdə olan 20 nəfərə yaxın şəxs gecə saat 1-də "Bulaq" istirahət zonasına gedərək oradakı kotteclərin birində istirahət edən gənc oğlanla qızı naməlum istiqamətə aparıb.**

Bundan başqa, istirahət mərkəzinin Elşad Həsənov adlı inzibatçısını da özləri ilə aparıblar.

Daha sonra rəsmi xəbər yayılıb və bildirilib ki, "Bulaq" istirahət mərkəzi müvafiq icazəsi olmadan, lisensiyasız fəaliyyət göstərir və buranı əxlaqsızlıq yuvası kimi istifadə edirlər, bu səbəbdən obyektdə əməliyyat keçirilib. Orada fəaliyyət göstərən şəxslərin də əxlaqsız hərəkətlərlə məşğul olduqları aydın olub.

Dünən redaksiyamıza "Bulaq" istirahət mərkəzinin tabe olduğu "Azərtunel" MMC-nin hüquqşünası Vüqar Məmmədzadə müraciət edərək, mediada yayılanları təkzib edib. Eyni zamanda mərkəzə verilən lisenziyanın surətini də redaksiyaya təqdim edərək, qanunsuz fəaliyyət göstərdikləri ilə bağlı verilən açıqlamaların doğru olmadığını bildirib.

***- Vüqar bəy, bu hadisə necə baş verib? Hekayəni danışa bilərsizmi?***

- Bizim işçilərin dediyinə görə, o qızla oğlan sanki otaqda oturub onları gözləyirdilər. Geyimli formada. Gələn kimi də dərhal bunların otağına giriblər. Sonra da administratorun əl-qolunu bağlayıb, sürüyə-sürüyə aparıblar maşına.

***- Hadisə bu cütlük istirahət mərkəzinə gələndən nə qədər müddət sonra baş verib?***

- Təxminən 4-5 saat sonra.

***- Bəs bu qızla oğlan ifadələrində nə deyiblər?***

- Onlar heç indi ortalıqda deyillər. Nə oğlan, nə qız. Bilinmir ki, hardadır, kimdir, baş verənlərdən şoka düşmüşük. Bu istirahət mərkəzi "Azərtunel" MMC-nin balansındadır. Mən MMC-nin adından, rəsmi etibarnamə ilə getdim ora və bildirdim ki, siz nə ixtiyarla bizim işçini götürürsüz? Bundan başqa, hotelin yaddaş kartını da heç bir səlahiyyətləri olmadığı halda çıxarıb götürüblər. Bilinmir, hansı haqla. Qətnamə yox, məhkəmə qərarı yox, amma yaddaş kartını müsadirə edib götürüblər. Üçüncüsü də, bunun sivil qaydası var. Rəsmi qaydada müraciət olunmalı, aparılırsa, akt tərtib olunmalı, səbəb göstərilməlidir. Amma bunların heç biri olmadığı halda gəlib obyektə müdaxilə ediblər.

***- Özləri çəkiliş aparıblarmı?***

- Xeyr. Heç bir çəkiliş olmayıb. Hədsiz dərəcədə kobudluqla nəticələnən bir əməliyyat qurublar.

***- İstirahət mərkəzinə gələn cütlüklərdən nikah şəhadətnaməsi tələb olunurmu adətən?***

- Qanunvericiliyin tələbində belə bir hal yoxdur ki, istirahətə gələn şəxslə bağlı axtarış edək, sorğu-suala tutaq. Müstəntiq deyilik və əlimizdə də hansısa əsas yoxdur bunun üçün. Sadəcə, baş verə biləcək hər hansı hadisəni nəzərə alaraq kitabda gələn vətəndaşların sənədlərinin qeydiyyatını aparırıq. Onlardan şəxsiyyət vəsiqəsi istəyirik. Amma biz gələnləri sorğu-suala tutub, onlardan nikah şəhadətnaməsi istəsək, konstitusion hüquqlarını pozuruq. Bu, gələcəkdə bizim biznes fəaliyyətimiz üçün də ciddi problem yarada bilər. İndi bizim nə qədər müştərilərimiz zəng edib soruşurlar ki, bu nə biabırçılıqdır... Özü də bu, təkcə bizim başımıza gələn hadisə deyil. Son dövrlər o həndəvərdəki 10-15 obyektdə buna bənzər hadisələr baş verib.

***- Sizin təxmininiz budur ki, bu cütlük öyrədilmiş adamlar idi...***

- Mən belə başa düşürəm ki, burda nəsə məqsəd var. Amma o məqsədi görə bilmirik. Qanunvericiliyin tələblərini kobud surətdə pozmaları qalsın bir kənara, məqsəd nədir, bilinmir.

***- Xəbəri oxuyanda ağla gələn versiyalardan biri də o oldu ki, yəqin o xanım ya hansısa vəzifəli məmurun qızı, ya da ailə üzvü olub. Hadisənin bu cür zorakılıq zəminində törədilməsini belə versiyalaşdıranlar oldu...***

- Hətta belə olsa da, bunun "Bulaq" istirahət mərkəzinə heç bir aidiyyəti yoxdur. Amma o versiya barədə heç bir məlumat yoxdur. Biz də bununla bağlı heç nə eşitməmişik. Ortada belə bir qətnamə yoxdur ki, filankəs filankəsin qızıdır, ya hansısa cinayətdə adı hallanır deyə bu formada aparılıb. Bizim özümüz hansısa turist özünü burda apara bilməyəndə, narahatlıq yaradanda polisə müraciət edirik. Bu halda polis müdaxilə edir.

***- Həmin cütlüyün yaşı nə qədər idi?***

- Hər ikisinin 25-30 yaşı olardı. Ora gün ərzində 50 adam girib-çıxır. Hardan yadımızda saxlayaq ki, adları nədir...

***- Administratorunuzu artıq azad ediblərmi? Nə deyir baş verənlər haqda?***

- Dərhal azad edildi. Mən sənədlərlə, sübutlarla getdim ora. Mətbuata açıqlama verirlər ki, "Bulaq"ın əxlaqsızlıq yuvası olması sübuta yetirildi. Sübuta yetirilmə o deməkdir ki, məhkəmənin qətnaməsi var ortada. Administratordan ancaq izahat alıblar. O da bildirib ki, bura ailəvi yerdir, hətta rəhbərlik öz ailəsini bura istirahətə gətirir.



AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

Vergi ödəyicisinin filialının, nümayəndəliyinin və təsərrüfat subyektinin (obyektinin) olduğu yer üzrə uçota alınması haqqında

ARAYIŞ

77200000688

3 saylı Ərazi Vergilər İdarəsi tərəfindən verilmiş bu arayış "AZƏRTUNEL" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

VÖEN 1900067691

2724 XAÇMAZ RAYONU ŞİMALİ QƏSƏBƏSİ

ünvanda yerləşən təsərrüfat subyektinin (obyektinin) olduğu yer üzrə uçota alınmasını təsdiq edir.

Təsərrüfat subyektinin (obyektinin adı):

"BULAQ" İSTİRAHƏT KOMPLEKSİ

### "Bizim mərkəzin kameraları var. Arxayınıq ki, orda bütün çəkilişlər qalır"

***- Mərkəzə gələn qadının əxlaqsız olub-olmadığını, cütlüyün münasibətinin formasını ilk baxışda necə müəyyənləşdirirsiz? Yəni sonradan başınız bu cür ağrımasın deyə hansısa həll mexanizmi varmı?***

- Əxlaqsızlıq yuvası o anlama gəlir ki, orda konkret 10-15 nəfər qadın əyləşir və gələn kişi müştərilərə onları təklif edirlər. Bunun təyinatı bu cürdür. Kimsə sevgilisi ilə ora gəlirsə, ona necə etiraz edə bilərik? Ödənişini edir, sənədlərini təqdim edir, biz də onun konstitusion hüququnu pozmadan istirahətinə mane olmuruq. Əgər gələn insanlar özlərini əxlaq normalarından kənar apararaq başqa turistlərin istirahətinə mane olmurlarsa, bizim onlara etiraz etməyimiz mümkün deyil. Həm də bizim mərkəzin kamerası var axı. Arxayınıq ki, orda bütün çəkilişlər var.

❑ **Sevinc TELMANQIZI**

# Anadolu Universiteti barədə Baş Prokurorluğa məktub göndərilib...




## Firudun Bəndəliyev: "Universitetlə bağlı şikayətlərə baxılması istənilib. Universitetin Azərbaycan proqramlarından məzun olanların diplomları Azərbaycanda tanınmır"

**Anadolu Universiteti Azərbaycan Proqramından narazılıq və şikayət var. Proqramın koordinatoru olmuş Firudun Bəndəliyev redaksiyamıza şikayət məktubu təqdim edib. Şikayətdə bildirilir ki, Anadolu Universiteti Azərbaycan proqramlarının qanunsuz fəaliyyəti və orada təhsil alan tələbələrin problemləri ilə əlaqədar dəfələrlə mediada yazılar getsə və məsələ ictimailəşsə də, problem çözülməyib. Bildirilir ki, hazırda 2500-dən artıq tələbənin gələcəyi sual altındadır: "Diplomların tanınmaması üzündən məzun olanlar Azərbaycanda magistraturaya müraciət edə bilmədikləri kimi, dövlət qulluğu vəzifələrində də işləmə imkanları olmayacaq".**

"Anadolu Universitetində distant təhsili alan azərbaycanlı gənclərin gələcəyinə biganə yanaşma davam edir. Tələbələri və valideynləri narahat edən məsələlərin başında təhsil ödənişlərinin kursda qalan tələbələr üçün haqsız olaraq yüksəldilməsi, universitetin Azərbaycandakı tərəfdaş qurumu olan və tələbələrə texniki xidmət göstərməyi öhdəsinə götürən Azərbaycan-Türkiyə İşadamları Birliyi, ATİB ilə tələbələr arasında heç bir rəsmi müqavilənin bağlanmaması və universitet tərəfindən verilən diplomların Azərbaycanın Təhsil Nazirliyi tərəfindən nostrifikasiya edilməməsi, yəni təsdiq olunmamasıdır",- deyə şikayətçi bildirir.

**Onun sözlərinə görə, Anadolu Universitetinin rəsmi internet səhifəsində 2014-cü ilin avqustundan universitetin Azərbaycan proqramlarının yayılmasında, tələbələrə distant xidmətlərin göstərilməsi üçün ATİB ilə protokol imzalandığı bildirilir:** "Amma ATİB rəsmi saytında bu əməkdaşlığı 3 aydan çox Azərbaycan ictimaiyyətindən gizlədib. Yalnız tələbələrin qeydiyyatı bitdikdən və təhsil haqları xaricə bir şirkətin bank hesabına keçirildikdən sonra, dolayı yolla ATİB rəhbərliyi özünə bağlı "EcoVizyon" jurnalında ATİB Anadolu Universiteti Azərbaycan Proqramlarının koordinatoru kimi göstərib.

ATİB yenə də açıq şəkildə tərəfdaş müqaviləsi bağladığını bəyan etmir. ATİB-in rəsmi saytında tərəfdaşlıq etdiyi qurumlar arasında Anadolu Universitetinin adı çəkilmir. Həmçinin Azərbaycan proqramlarında distant təhsili alan tələbələr təhsil haqlarını onlarla heç bir xidmət müqaviləsi imzalanmadan "Anadolu Vizyonu Kurs Destek ve Turizm Sanayi Ticaret Anonim Şirketi"nin Şimali Kipr Respublikasının paytaxtı Lefkoşadakı Ziraat Bankının hesabına keçiriblər? Bu şirkətlə ATİB arasında nə əlaqə ola bilər? Bu şirkətin təsisçisi və rəhbəri kimdir? ATİB-in rəsmi saytında və bu quruma bağlı "EcoVuzyon" jurnalında yeni üzvlər arasında "Anadolu Vizyonu Kurs Destek ve Turizm Sanyi Ticaret Anonim Şirketi"nin də adı keçir. Təmsilçisi isə Ömər Dönməz adlı şəxsdir. Bildirilir ki, Ömər Dönməz Azərbaycanda əsasən inşaat sektorunda fəaliyyət göstərən və ATİB sədri olan Camal Yanğına bağlı "İstanbul Çarşı İmport Export LTD" şirkətinin həm baş mühasibi, həm də ATİB Təftiş Komissiyasının üzvüdür".

**F.Bəndəliyev bildirir ki, daha bir diqqətçəkən məqam isə "Anadolu Vizyonu Kurs Destek ve Turizm Sanayi Ticaret Anonim Şirketi"nin Azərbaycan nümayəndəliyinin Anadolu Universiteti Azərbaycan Proqramlarına tələbə qəbulunu elan etməsidir:** "Əgər Anadolu Universiteti Azərbaycanda tərəfdaş qurum kimi ATİB-i görürsə, bu şirkət nümayəndəliyinin tələbə qəbulunu həyata keçirməsi nə dərəcədə doğrudur?"

**Məlumat əldə edilib ki, azərbaycanlı tələbələrdən alınan təhsil haqqının dörddə bir, ya da beşdə bir hissəsi Anadolu Universitetinin hesabına köçürülür. Yəni min avrodan 200-150 avroluq hissə köçürülür. Şikayətçinin sözlərinə görə, təhsil ödənişləri kursda qalan tələbələr üçün haqsız olaraq yüksəldilib. Həmçinin universitet tərəfindən verilən diplomlar Təhsil Nazirliyi tərəfindən təsdiq olunmur:** "Hazırda mindən çox tələbə təhsillərini dondurmaq məcburiyyətində qalıb. Bu cür tələbələrin sayı hər il getdikcə artır. Bildirilir ki, Anadolu Universitetinin fəaliyyəti üçün Təhsil Nazirliyinə rəsmi heç bir müraciət olunmayıb. Yəni "Anadolu Vizyonu Kurs Destek ve Turizm Sanayi Ticaret Anonim Şirketi"nin Azərbaycan Respublikasındakı nümayəndəliyinin Anadolu Universiteti adından fəaliyyəti qanunsuzdur. Ayrıca müvafiq icra mexanizmi olmadığından, distant formada məzun olan şəxslərin ali təhsil haqqında sənədlərinin, diplomlarının ekvivalentliyinin müəyyən edilməsi mümkün deyil. Yəni Anadolu Universitetində Azərbaycan proqramlarından məzun olanların diplomları Azərbaycanda tanınmayacaq".

Son olaraq isə bildirilir ki, Anadolu Universitetinin Azərbaycandakı fəaliyyəti ilə əlaqədar Prezident Adminstrasiyası tərəfindən Baş Prokurorluğa rəsmi məktub göndərilib və universitetlə bağlı şikayətlərə baxılması istənilib. Qarşı tərəfin də rəyini dinləməyə hazırıq.

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 168 (6196) 4 avqust 2015

# Ötən 7 ayın iqtisadi yekunları - ekspert təhlili

## Neftin ucuzlaşmasının fəsadları; AZAL-ın qiymət oyunu; devalvasiyanın yaratdığı bahalıq...

Azərbaycan üçün son illərin ən gərgin iqtisadi proseslərinin yaşandığı 2015-ci ilin 7 ayı geridə qaldı. Son 7 ay dünya bazarında neftin ucuzlaşması, ölkə gəlirlərinin azalması, manatın devalvasiyası, nəticədə bank sektorunda yaşanan problemlər, bankların müflis olması, problemli kreditlərin həcminin artması, ayrı-ayrı sahələrdə tənəzzül, bahalaşma ilə müşahidə olundu. Bəzi sahələrdə bahalaşma o həddə çatdı ki, ölkə başçısı məsələyə reaksiya verməli oldu. Ötən 7 ayda əhalinin sosial durumunda geriləmə, gəlirlərin azalması və iş yerlərinin itirilməsi baş verdi. Cəmiyyətdə ciddi sosial gərginlik yaşanmasa da ayrı-ayrı hallarda maddi çətinliklər, xüsusilə kredit borcları insanların özünə qəsd etməsi ilə nəticələndi.

Bəs görəsən, iqtisadçı ekspertlər ilin 7 ayının yekunlarını necə dəyərləndirir?

**"Yeni Müsavat"a açıqlamasında müvafiq dövrün iqtisadi nəticələrini dəyərləndirən Vüqar Bayramov** bildirdi ki, 2015-ci ilin ötən 7 ayının iqtisadi yekunlarını qiymətləndirərkən neftin dünya bazarında qiymətinin olduqca həlledici olduğunu birmənalıdır: "Neftin qiyməti həm dünya iqtisadiyyatına, həm də Azərbaycan iqtisadiyyatına təsirsiz ötüşmədi. Nəzərə alsaq ki, Azərbaycanın dövlət büdcəsinin gəlirlərinin 65 faizi neftin payına düşür, bu baxımdan neftin dünya bazarında qiyməti Azərbaycan iqtisadiyyatına birbaşa təsir göstərir. Neftin qiymətinin aşağı düşməsi fonunda Azərbaycanın neft gəlirlərinin azalması bu ilin 7 ayının iqtisadi yekunu kimi xarakterizə edilməlidir. Bu ilin 7 ayı həm də manatın məzənnəsinin digər xarici valyutalara nisbətən aşağı düşməsi ilə nəticələndi. Devalvasiya öz növbəsində Mərkəzi Bankın aktivlərinin azalmasına gətirib çıxartdı. Əgər ilk 4 ayda Mərkəzi Bankın aktivlərində ciddi azalma, aylıq olaraq 1 milyard dollardan artıq azalma müşahidə olunurdusa, may və iyun ayının yekunlarına görə, Mərkəzi Bank öz aktivlərini stabilləşdirə bildi. Hətta Mərkəzi Bankın aktivlərində aylıq olaraq artım qeydə alınır. Bu həm dollarlaşma prosesinin başa çatması ilə bağlıdır, həm də istifadədə olan dolların cari xərclər üçün manata çevrilməsi, eyni zamanda Mərkəzi Bankın daxili və xarici borclara getməsi ilə valyuta ehtiyatlarının stabilliyini qorumağa çalışması ilə bağlıdır. Bu baxımdan Mərkəzi Bankın aktivlərindəki artım tendensiyası yarımillik dövrün yekununa doğru müsbət tendensiya kimi qiymətləndirilə bilər. Çünki bu, manatın məzənnəsinin stabil saxlanılması üçün olduqca vacibdir".



**Iqtisadçı ekspertin sözlərinə görə, son ayların ən yadda qalan məqamlarından biri də ölkə başçısının müşavirələrdə Nazirlər Kabinetinin fəaliyyəti ilə bağlı öz iradlarını bildirməsi və tapşırıqlar verməsi oldu:** "Xüsusən də AZAL-ın daxili və xarici reyslərində qiymətlərin yüksək olması, son həftələr ən çox müzakirə olunan məsələlərdən biri oldu. Son günlər müəyyən qiymət endirimləri həyata keçirilsə də, AZAL-ın təklif etdiyi tariflər yüksək olaraq qalır".

**Vüqar Bayramov onu da vurğuladı ki, son ayların ən müsbət məqamlarından biri dərmanların qiymətləri ilə bağlı gözlənilən azalmanın baş tutması oldu:** "Artıq yeni təsdiq olunmuş tənzimlənən qiymətlərdə demək olar ki, əksər dərman preparatlarının qiymətinin endirilməsi nəzərdə tutulub ki, bu da vətəndaşlara dərmanlara daha ucuz əldə etməyə imkan verəcək. Eyni zamanda dərmanların ucuzlaşması ilə yanaşı yerli dərmanların istehsalının genişlənməsi və əhalinin əczaçılıq mallarına olan tələbatının bir qisminin yerli istehsal hesabına ödənilməsi olduqca vacibdir. Bu da uzunmüddətli dövr üçün əhalinin dərmanları daha aşağı qiymətə əldə etməsinə imkan yarada bilər".

**Vüqar Bayramovun sözlərinə görə, son 7 ayda ən çox müzakirə olunan və ən çox problemlə üzləşən sektor bank sektoru oldu:** "Devalvasiyadan sonra bankların vəziyyəti ağırlaşdı. Dollarla götürülən kreditlərin ödənişində problemlərin yaranması və problemli kreditlərin həcminin artması müşahidə edildi. Təəssüf ki, problemli kreditlər hələ də artmaqda davam edir. Ötən ay iki bankın müflis olması, «EvroBank» və "Azərbaycan Kredit Bankı"nın lisenziyasının geri alınması və Mərkəzi Bankın ötən ilin payızında qeyd etdiyi kimi, 3 bankın da müflisləşməsinin gözlənilməsi də ondan xəbər verir ki, hazırda 3 bankın da müflisləşməsi təhlükəsi var və onların da durumu ciddi şəkildə narahatlıq doğurur. Ona görə də güman olunur ki, yaxın aylarda Mərkəzi Bank daha 3 bankın müflisləşməsi, lisenziyasının geri alınması ilə bağlı qərar verə bilər. Bu da ölkədə bankların sayının azalması və müflis olan bankların sayının artması kimi müşahidə olunacaq. Bu baxımdan bank sektorunda problemli kreditlərin həcminin artması və müflisləşən bankların çoxalması fonunda ötən 7 ayı heç də uğurla başa vura bilmədi. Bank sektoru ilə bağlı müsbət məqam ölkə başçısının tapşırığı ilə ipoteka kreditlərinə ayrılan vəsaitin artırılması və əlavə olaraq 200 milyon manat vəsaitin ayrılması ilə bağlı idi ki, bu da həm ipoteka şərtlərinin təkmilləşdirilməsinə və bu istiqamətə daha çox vəsaitin yönəldilməsinə imkan verəcək. Güman olunur ki, dövlət başçısının tapşırığından sonra 4 min ailə ipoteka kreditindən istifadə etməklə mənzil problemini həll edə biləcək. Mərkəzi Bank Maliyyə Nazirliyi ilə ipoteka şərtlərinin təkmilləşdirilməsi təkliflərini razılaşdırdı. Buraya ipoteka kreditləri üzrə maksimum məbləğin 50 min manatdan 100 min manatadək artırılması, sosial ipoteka kreditlərinin faiz dərəcələrinin aşağı salınması və regionlarda da ipoteka kreditlərinin təklif edilməsi daxildir. Bu 7 ayda razılaşdırılan məsələlər növbəti aylarda həyata keçiriləcək".

**"Büdcənin gəlir və xərclərinin icrası ilə bağlı məsələ də ən çox müzakirə olunan məsələlərdən biri oldu" - deyən V.Bayramovun sözlərinə görə, büdcə kəsirinin ümumi daxili məhsulun 2,9 faizini təşkil etməsi hələlik təhlükəli hədd hesab edilmir:** "Büdcədə kəsir olmasına baxmayaraq, bu defisit hələlik təhlükəli həddə deyil. Əvvəldən də 2015-ci ildə büdcə kəsirlərinin olacağı proqnozlaşdırıldığı üçün Maliyyə Nazirliyi bu kəsirə hazırdır. Ümumi daxili məhsulun büdcə kəsiri 3 faizdən azdır. 2015-ci ilin ilk yarımilində 771 milyon manata yaxın dövlət kəsiri formalaşıb. Nəzərə alsaq ki, 2015-ci ildə büdcə gəlirləri 19,3 milyard manat, büdcə xərcləri isə 21 milyard manatdan çox proqnozlaşdırılırdı. Bu isə o deməkdir ki, hətta neftin dünya bazarındakı qiyməti 90 dollar olsaydı belə, 2015-ci ilin dövlət büdcəsində kəsirlər müşahidə olunacaqdı. Maliyyə Nazirliyi kapital xərclərini məhdudlaşdırmaqla büdcədə xərclər və gəlirlər arasındakı balansı qoruyub saxlaya bilir. Bütövlükdə bu ilin ötən 7 ayını qiymətləndirsək, iqtisadiyyat stabil qiymətləndirilə bilər. Ancaq sözsüz ki, neftin dünya bazarında qiymətinin aşağı düşməsi fonunda dövlət gəlirlərinin azalması qeydə alındı. Eləcə də Rusiyadan Azərbaycana gələn vəsaitlərin həcmində kəskin azalma qeydə alındı. Bu azalma xüsusən regionlarda yaşayan əhalinin sosial vəziyyəti baxımından da mənfi təsir edir".

**Ekspert Mərkəzi Bankın bu ilin sonunadək manatı stabil saxlamaqda qərarlı olduğunu da açıqladı:** "Amma güman olunur ki, devalvasiya iki faktordan asılı olacaq. Birincisi, neftin dünya bazarındakı qiymətində baş verəcək dəyişikliklər, ikincisi isə Mərkəzi Bankın valyuta ehtiyatları. Yaxın aylar üçün devalvasiya riski olduqca azdır. Mərkəzi Bank çalışacaq ki, yeni devalvasiya olmasın. Çünki növbəti devalvasiya bank sektoruna mənfi təsir göstərə və müflis olan bankların sayının artmasına gətirib çıxara bilər. Bu baxımdan Mərkəzi Bank çalışacaq ki, yaxın aylarda manatın devalvasiyası baş verməsin. Əgər növbəti ildən başlayaraq dünya bazarında neft bahalaşmağa başlayarsa, o zaman bu, Mərkəzi Banka xeyli rahatlıq gətirə bilər. Ancaq mövcud şərtlər daxilində də Mərkəzi Bank bu il üçün manatın məzənnəsini stabil saxlaya biləcək".

❑ **Nərgiz LİFTİYEVA**

# "Mərkəzi Bank qanunvericiliyi pozur"

## **Ekspert:** "Mərkəzi Bankın inzibati yolla komisyon haqlarını endirmək və faiz tavanı tətbiq etmək göstərişini verməsi qanuna ziddir"

**"Mərkəzi Bankın komisyon haqlarının 1 faizə salınması və kredit faizlərinə yuxarı tavanın tətbiqi ilə bağlı göstərişləri bank sektorunun baş ağrısına çevrilib. Mərkəzi Bankın qeyri-rəsmi tapşırığı daha çox sosial gərginliyin azaldılmasına hesablanıb". Ekspert Samir Əliyev baş bankın son göstərişlərini şərh edərkən belə deyib.**

Onun sözlərinə görə, tənzimləyici qurum bu addımı ilə bankların sağalmamış devalvasiya "yaralarının" üzərinə sanki duz səpib: "Həm kreditləşmənin zəifləməsi, həm də faiz dərəcələrinə limitin qoyulması faiz gəlirlərini kəskin azaldacaq. Qeyd edim ki, Mərkəzi Bank qeyr-rəsmi göstəriş verməklə ikinci dəfə öz səlahiyyətlərini aşmaq yolunu tutdu. "Banklar haqqında" Qanunun 36-cı maddəsinə görə, hər bir bank müştərilərlə bağladığı müqavilədə xidmət şərtlərini, o cümlədən faiz dərəcələrini, komisyon haqlarını müəyyən etməkdə sərbəstdir. Mərkəzi Bankın inzibati yolla komisyon haqlarını endirmək və faiz tavanı tətbiq etmək göstərişini verməsi qanuna ziddir. Bankları qanunun tələblərinə əməl etməyə dəvət edən Mərkəzi Bank bank qanunvericiliyini pozmaq yolunu tutur. Mərkəzi Bank uzaq başı banklara tövsiyə verə bilər. Bunu həyata keçirmək isə bankların öhdəliyi yox, hüququdur".

**Onun sözlərinə görə, Mərkəzi Bankın komisyon haqlarını və illik faiz dərəcələrini inzibati yolla tənzimləməsi təşəbbüsü daha çox bank olmayan kredit təşkilatlarını (BOKT) vuracaq. Çünki BOKT-ların maliyyə mənbələri məhduddur və göstərdikləri xidmətlərin çeşidi isə azdır:** "Banklarla müqayisədə BOKT-larda kredit faizləri daha yüksəkdir. Bu kredit təşkilatlarında illik faiz dərəcəsi hətta 42 faizə çatır. Bu qurumların kredit portfeli də məhduddur. BOKT-ların kredit qoyuluşu ümumilikdə 591 milyon manata yaxındır və ölkə üzrə kredit qoyuluşunun 2,9 faizi onların payına düşür".

**S.Əliyev deyib ki, ölkədə 157 bank olmayan kredit təşkilatı fəaliyyət göstərir ki, onların 109-u kredit ittifaqlarıdır. Deməli, hazırda əhalini və kiçik sahibkarları aktiv olaraq kreditləşdirən 48 kredit təşkilatı var:** "Bu kredit təşkilatlarının ümumilikdə 224 filil şəbəkəsi mövcuddur, onların əksəriyyəti regionlarda yerləşir. BOKT-ların əsas üstünlüyü onun resurslarına əlçatanlığın də olmasıdır. BOKT-lar həm də banklardan fərqli olaraq kənd yerlərində, o cümlədən cəbhə bölgəsinə yaxın ərazilərdə işləyirlər. O yerlərə ki, banklar qəti maraq göstərmir. Bu qurumların işçiləri ən ucqar kəndlərə getməkdən belə çəkinmirlər. Halbuki banklar ən yaxşı halda rayon mərkəzlərində işləməklə kifayətlənirlər. Mərkəzi Bankın son tapşırıqları BOKT-ların gəlirlərini kəskin azaldacaq. Nəticədə bəziləri filial şəbəkəsinin bağlanması, işçilərin ixtisarı kimi sərt addımlar atılacaq. Hətta bəzi BOKT-ların bazarı tərk etməsi mümkündür. Bununla da regionların kreditə əlçatanlığı pisləşəcək. BOKT-ların kredit vermək üçün cəlb etdikləri resurslar çox bahadır. Mövcud faiz həddi, yəni istehlak kreditləri üçün 29 faiz, mikrokreditlər üçün 25 faiz onlar üçün çox əlverişsizdir. Ona görə Mərkəzi Bank kreditlərin illik faiz dərəcələrinə tətbiq etdiyi tavanı BOKT-lara şamil etməməlidir. Onlara faizləri müəyyənləşdirməkdə sərbəstlik verilməlidir. Bu qurumların kredit bazarında faizlərin formalaşması siyasətinə təsir imkanları yox səviyyəsindədir. Kredit faizlərini banklar formalaşdırır, BOKT-lar isə onların arxasınca gedir. Mərkəzi Bank kredit faizlərini aşağı salmaq istəyirsə, banklarla işləməlidir. Banklarla BOKT-lara eyni yanaşma olmamalıdır. Ən azı yaxın dövr üçün BOKT-lar üçün bu limiti aradan qaldırmalıdır. Əks halda, ixtisarlar və bağlanma halları qaçılmazdır".

❑ **RÖYA**





# Almaniyadan öz obyektiv vasitəçi imicinə ağır zərbə

## Dövlətin maliyyələşdirdiyi "Alman dalğası" radiosunun əməkdaşının Qarabağa qanunsuz səfəri və hazırladığı təxribatçı reportaj aranı qatdı; rəsmi Bakıdan sərt reaksiya gəldi; Berlinin anti-Azərbaycan gedişinin arxasında nə durur?

**ATƏT-in Minsk Qrupunun Qarabağ probleminin dinc yolla həllinə yönəlik fəaliyyəti fiasko olduğundan, son vaxtlar formatın dəyişdirilməsi zəruriliyi tez-tez gündəmə gəlir. Əsasən də daha obyektiv və neytral vasitəçi kimi Avropa Birliyinin favorit dövləti kimi Almaniyanın adı hallanır. Onu ya ermənipərəst Fransanın yerinə gətirmək, ya da 4-cü həmsədr kimi namizədliyini irəli sürmək təklifləri səslənir.**

Xatırladaq ki, Almaniya da Minsk Qrupunun üzvüdür. İnsafən, rəsmi Berlin Azərbaycanın ərazi bütövlüyünü həmişə tanıyıb və ona hörmətlə yanaşdığını bəyan edib. Elə ötən ay Almaniya hökumətinin Dağlıq Qarabağa aid hazırladığı hesabatda Ermənistan birmənalı işğalçı dövlət kimi təqdim edilib, Dağlıq Qarabağ da daxil, ölkəmizin işğal edilmiş ərazilərinin boşaldılması zəruriliyi əksini tapıb.

Buna qədər də analoji sənədlərdə Berlinin mövqeyi birmənalı şəkildə beynəlxalq hüquq normalarına söykənib və Azərbaycanın xeyrinə olub. O sırada Dağlıq Qarabağla bağlı Avropa Parlamentinin, AŞ PA, ATƏT və NATO Parlament assambleyalarının obyektiv sənədlərini rəsmi Berlin dəstəkləyib. Öz növbəsində Almaniya kansleri Angela Merkel bu ilin əvvəlində Azərbaycan prezidenti İlham Əliyevlə Berlində görüşü zamanı eyni ədalətli yanaşmanə ortaya qoyub, Rusiyanın münaqişənin həllində destruktiv rolunu pisləyib.

Qarabağ məsələsində məhz belə ardıcıl, prinsipial mövqe nəticəsində də Azərbaycanda Almaniyaya rəğbət hissi yaranmaqla yanaşı, onun haqqında obyektiv vasitəçi imici möhkəmlənib.

*****

Əfsuslar olsun ki, bu günlər belə bir imicə zərbə vuran xoşagəlməz hadisə baş verib. Almaniyanın ictimai yayım şurasının orqanı olan "Alman dalğası" radiostansiyası Dağlıq Qarabağ məsələsində Azərbaycana qarşı açıq-aşkar düşmənçilik mövqeyindən çıxış edib (virtualaz.org). Belə ki, radiostansiya işğal altındakı ərazilərimizdən hazırladığı reportajda qərəzə yol verib, separatçı-işğalçı qüvvələrin mövqeyini tərənnüm edib.

Reportajdan aydın görünür ki, radiostansiya əməkdaşı Kristianna Trippe Ermənistan üzərindən Azərbaycanın işğal altındakı ərazilərinə daxil olaraq separatçıları mədh edib, azərbaycanlıları "hamilə qadınları və uşaqları qətlə yetirən qəddar cinayətkarlar" obrazında təsvir edib.

**Materialda Azərbaycan ərazilərinin işğalında iştirak etmiş erməni zabit V.Arzumanyandan sitat verilir:** "Biz ancaq öz ölkəmizi, kilsəmizi, qəbirlərimizi, torpaqlarımızı və ailəmizi müdafiə edirik. Biz döyüşmək, müharibə istəmirik".

V.Arzumanyanın 40 yaşlı qardaşı Anuşavan isə bu yaxınlarda könüllü kimi "Qarabağ ordusuna" yazılıb və hazırda ön xətdə xidmət edir. Deyir ki, "veteran qardaşından nümunə götürmək və ölkəsinin müdafiəsinə öz töhfəsini vermək" istəyir. Alman jurnalist işğalçı ordunun ön xətdəki mövqeyinə də baş çəkib. Erməni serjantlardan biri ona deyib ki, gecələr Azərbaycan snayperləri çox fəal işləyir, istənilən hərəkətə reaksiya verir. Atışmalar tez-tez olur.

**Təmas xətti yaxınlığındakı kənddə hazırda ermənilər məskunlaşıb. Jurnalist Boris adlı sakinin sözlərindən də sitat gətirir:** "Burada bizim qanımız axıb. Bu torpaqlar uğrunda həlak olmuşuq. Azərbaycanlıları heç vaxt bağışlaya bilmərik. Onlar müharibə vaxtı bizim hamilə qadınlarımızı və uşaqlarımızı öldürüblər".

Daha sonra "Alman dalğası"nın əməkdaşı Xankəndinə baş çəkib, orada qondarma "DQR" rejiminin "nazirləri" ilə söhbətləşib. Onların münaqişəyə dair tamamilə təhrif olunmuş fikirlərinə gen-bol yer verib. Xankəndində "DQR bayrağının qürurla dalğalandığını" yazıb. Trippe habelə, Xocalı aeroportunun yerində inşa edilmiş yeni aeroportdan bəhs edib, Azərbaycan tərəfinin ora enən və ya qalxan istənilən təyyarəni vuracağına dair hədələrindən sonra aeroportun istifadəsiz qaldığını xatırladıb. Dağlıq Qarabağa hərbi və mülki yüklərin Ermənistanla yeganə quru əlaqəsini təmin edən "Laçın dəhlizi" ilə daşındığını bildirib.

*****

Söhbət ilk dəfə olaraq sıradan alman KİV-lərindən birindən deyil, məhz "Alman dalğası"ndan getdiyi üçün və radiostansiyanın mövqeyinin bir qayda olaraq rəsmi Berlinin mövqeyi sayıldığı üçün məsələ əlbəttə ki, ikiqat önəm daşıyır.

**Elə ona görə də hadisəyə Azərbaycanın rəsmi reaksiyası özünü çox gecikdirməyib. Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev insidentlə bağlı Almaniyanın müvafiq qurumlarına müraciət ediləcəyini bildirib. Sözsüz ki, əcnəbi jurnalistin "qara siyahı"ya salınması da öz yerində.**

**"Almaniya Federativ Respublikasının "Deutsche Welle" ictimai yayım şirkətinin ("Alman dalğası" - red.) 31 iyul 2015-ci il tarixli "Dağlıq Qqarabağ münaqişəsində gərginlik artır" adlı verilişi qərəzli və birtərəflidir, obyektiv jurnalistika prinsiplərindən uzaqdır" - deyib XİN sözçüsü və radionun öz çəkiliş qrupunu qanunsuz olaraq işğal olunmuş ərazilərə göndərməsinin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və qanunlarının pozulması demək olduğuna xüsusi diqqət yönəldib.**




"Verilişdə yalnız Ermənistanın Azərbaycana qarşı təcavüz və işğalının nəticəsində Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə yaradılmış qondarma rejimin "hərbi və mülki nümayəndələri"nin yalan fikirlərinə yer ayrılır. Münaqişənin bilavasitə qurbanı olmuş və etnik təmizləməyə məruz qalmış bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqları və əzab-əziyyətləri barədə isə məqsədli şəkildə heç nə deyilmir. Mahiyyət etibarilə veriliş Azərbaycan xalqına qarşı törədilmiş qanlı etnik təmizləmə əməlləri, Ermənistanın Azərbaycana qarşı işğal və təcavüzü və bunun nəticəsində yaradılmış qondarma kriminal rejimin təşviqinə xidmət edərək, münaqişənin qurbanı olmuş bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə və Azərbaycan ictimaiyyətinə qarşı hörmətsizlik mənası daşıyır".

**Hikmət Hacıyevin sözlərinə görə, "Alman dalğası" əsas məqsəd və məramlarından birinin dünya mədəniyyətləri və xalqları arasında anlaşmaya xidmət etdiyini iddia etsə də, bu veriliş vasitəsilə dini və etnik zəmində nifaqın gərginləşməsinə xidmət eləmiş olub:** "Münaqişənin əsl mahiyyətini təhrif edərək, qərəzli və obyektivlikdən kənar veriliş təqdim etməklə radio eyni zamanda öz yerli və beynəlxalq tamaşaçı auditoriyasına da hörmətsizlik nümayiş etdirir. Bu cür yanaşma, eləcə də ifadə və mətbuat azadlığı prinsiplərinin kobud şəkildə pozulması və ondan sui-istifadə edilməsi kimi qiymətləndirilir. Ciddi narazılıq doğuran məqam ictimai yayım şirkəti olan "Alman dalğası"nın Almaniyanın dövlət büdcəsi vasitəsilə maliyyələşdirilməsidir. Azərbaycan Almaniyadakı səfirliyi məsələ ilə əlaqədar bu dövlətin müvafiq qurumlarına rəsmi qaydada müraciət edəcək".

"Ümid edirik ki, Azərbaycan-Almaniya əlaqələrinin ruhuna, Minsk Qrupunun üzvü kimi münaqişə ilə əlaqədar Almaniyanın rəsmi mövqeyinə və media azadlığına zidd olan bu verilişin hazırlanması və efirə verilməsi məsələsi Almaniyanın aidiyyəti qurumları tərəfindən lazımınca araşdırılacaq və adekvat münasibət bildiriləcək", - deyə XİN rəsmisi fikrini tamamlayıb.

*****

Diqqətli olmamız lazım. Çünki qalır məsələyə rəsmi Berlinin (o cümlədən Bakıdakı səfirliyin) və radionun özünün reaksiyası. Bu reaksiya Almaniya dövlətinin Dağlıq Qarabağ, işğal məsələsində sərgilədiyi mövqeyə adekvat olacaqmı? Bir az gözləyək.

Sonda əlavə edək ki, məlum insidentədək Azərbaycan XİN-in "qara siyahısı"na Almaniya vətəndaşlarından demək olar, kimsə düşməyib. Axırıncı olay isə göstərir ki, Qərbdəki erməni dairələri və Azərbaycan əleyhinə olan digər dairələr məqsədli şəkildə Almaniya haqda obyektiv vasitəçi imicini dağıtmaq, Bakı ilə Berlinin arasını həmişəlik vurmaq, Qarabağ məsələsində Almaniyanı da öz tərəflərinə çəkmək üçün hərəkətə keçib.

Odur ki, bu yandan da rəsmi Bakının anti-Berlin ritorikası işin yalnız ziyanına, məkrli dairələrin əlinə işləyə bilər. Bəlkə də "Alman dalğası" radiosunun bu addım elə son vaxtlar Azərbaycanda Almaniya əleyhinə aparılan rəsmi təbliğata bir cavab olaraq düşünülüb. Bütün hallarda öncə Qarabağdır.



# Elza Seyidcahan aparıcı ilə dalaşmasından danışdı

## "Bu mənə lazım deyildi..."

**Yerli telekanallarda qalmaqallar davam etməkdədir. Bu dəfə ANS telekanalında yayımlanan "Evdəyik" verilişində qovğa yaşanıb. Belə ki, verilişin aparıcısı Ulvira Qarayevanın qonağı Elza Seyidcahan özünə qarşı hörmətsizlik edildiyini bildirərək verilişi tərk edib. Səbəb isə aparıcının onu Əməkdar artist kimi deyil, "maraqlı xanım Elza Seyidcahan" kimi təqdim etməsi olub. Əməkdar artist efiri tərk edərkən aparıcıya aqressiv sözlər deməyi də unutmayıb: "Sən veriliş aparırsan, nəsə etmək istəyirsən. Yerləri səhv salırsan. Çaşma. Çaşırsan, elə bilirsən verilişinə gəlməmişəm deyə, belə edə bilərsən".**



Bu barədə "Yeni Müsavat"a danışan Əməkdar artist teleməkanda milli dəyərlərin itməsindən, verilişlərdə qonaqlara qarşı hörmətsizlikdən şikayətlənib: "Mən istəməzdim ki, bu olanlar efirə getsin. Etik qaydalara görə belə olayları efirə vermək olmaz. Efirlər artıq gizlədilməli olan şeyləri də efirə verərək reytinq qazanmağa çalışırlar.Birmənali şəkildə bildirirəm ki, efirlərdə artıq milli dəyər deyilən amil qalmayıb.

Aparıcı məndən soruşur ki, "sizə Əməkdar artist deməyəndə nə olur ki?" Anlamaq istəmir ki, bu, sənətçiyə qarşı hörmətsizlikdir. "Əməkdar artist" fəxri adını mənə dövlət verib. Bu adı böyük çətinliklə, xeyli əziyyət çəkdikdən sonra alırıq".

**Elza Seydcahan bundan sonra verilişlərə çıxmaq istəmədiyini deyib:**

"Bu cür olay mənə lazım deyildi...Özümə söz verib qarşıma şərt qoymuşam ki, bundan sonra cüzi də olsa hörmətsizliklə qarşılaşsam, heç bir söz demədən, şərh vermədən efiri tərk edəcəm. Artıq bir çox verilişlərdən uzaq durmağa çalışıram. Çünki bu cür verilişlərdə insanın abırı, isməti əldən gedir. Biz sənət adamıyıq, bizə belə şeylər yaraşmaz. Ya gərək həmin aparıcılarla dilləşəsən, ya da ki, verilişi tərk edəsən".

Qeyri-adi imici, geyimi, yazdığı şeirləri ilə daim mətbuatın gündəmində qalmağı bacaran bəstəkar-müğənni aparıcı Ulvira Qarayevanın məqsədli şəkildə ona qarşı hörmətsizlik etdiyini bildirib:

"Veriliş başlayan kimi mənə dedi ki, "sizi 76 dəfə verilişə çağırmışıq, lakin gəlmək istəməyibsiz". Mən də dedim ki, bu saymamazlıqdan deyil, sadəcə bir çox layihələrdə iştirak etdiyimdən, işlərimin çoxluğundan vaxt tapıb verilişə gələ bilməmişəm. Ancaq görünür ki, verilişə gələ bilmədiyim üçün Ulvira acıqlanıb və mənə qarşı bu hərəkəti etdi.

Mən hətta bu barədə mikrofona demədim, sadəcə, kənara keçib bildirdim ki, verilişdən gedirəm. Verilişin prodüseri Səadət xanım da narahat olmuşdu, o, çox istədi ki, mən qalım. Lakin anladım ki, Ulvira bunu qəsdən edir və sakitcə studiyanı tərk etdim".

Xatırladaq ki, Elza Seyidcahanın ad üstündə aparıcı ilə davası birinci dəfə deyil. Belə ki, ötən ilin avqust ayında Əməkdar artist ATV -də yayımlanan "Azərbaycanın səsi" verilişində aparıcı Günay Firudinqızının onu sadəcə "Elza" adlandırmasından da əsəbləşmişdi. O,"Sən Günay xanımsansa, mən də Elza Seyidcahan - əməkdar artistəm. Mənə bu adı dövlət verib. Məni o cür təqdim edin" deyərək aparıcıya kəskin iradını bildirmişdi.

❑ **Xalidə Gəray**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


# Həftə sonu Azərbaycanda 5 nəfər suda boğulub

**İstirahət günləri Azərbaycanda 9 nəfər bədbəxt hadisə nəticəsində ölüb. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, avqustun 1-i və 2-də Sumqayıt şəhər sakinləri 16 yaşlı Mehman Dövlətov, Saleh Sadıqov, Neftçala rayon sakini Elvin Hüseynli, Bakı şəhər sakini Amil Qəniyev dənizdə, Bakı şəhər sakini Şamil Məmmədov isə Şamaxı rayonunun Nağaraxana kəndinin ərazisindəki göldə çimərkən boğularaq ölüblər.**

Daxili İşlər Nazirliyi istirahət günləri daha 4 nəfərin bədbəxt hadisə nəticəsində ölməsi barədə məlumat yayıb. Məlumata görə, Saatlı rayonunun Qırağlı kənd sakini Möhlət Abbasov su mühərrikini təmir edərkən elektrik cərəyanı vurması nəticəsində, Mingəçevir şəhər sakini Gülbadam Davudova yaşadığı mənzilin eyvanından yıxılaraq, Könül Məmmədova yaşadığı Gədəbəy rayonu ərazisindəki "Qoca dağ" adlanan yaylaqda qidadan zəhərlənərək, Sumqayıt şəhərinin 13-cü mikrorayonunda H.Z.Tağıyev qəsəbə sakini İsmayıl Rüstəmov isə fəhlə işlədiyi ikimərtəbəli tikilinin damından yıxılaraq ölüblər.

Bütün faktlar üzrə araşdırma aparılır.





## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34


# "Nar"ın dəstəklədiyi komanda "Microsoft Imagine Cup" beynəlxalq müsabiqəsində Azərbaycanı uğurla təmsil etdi

## Azərbaycanın "NoObs" komandası nüfuzlu müsabiqədə 2-ci yerə layiq görüldü

**Hər zaman yenilik və innovativ dəyişiklikləri alqışlayan "Nar"ın dəstək verdiyi daha bir layihə uğurla başa çatdı. Mobil operatorun Azərbaycan Respublikası Təhsil Nazirliyi, Yüksək texnologiyalar parkı və "Microsoft Azerbaijan" şirkəti ilə birgə start verdiyi "Microsoft Imagine Cup" innovasiya yarışmasının milli təsnifat mərhələsinin qalibi olmuş və beynəlxalq yarımfinal mərhələsini də müvəffəqiyyətlə başa vurmuş "NoObs" komandası Azərbaycanı ABŞ-ın Sietl şəhərində təşkil edilmiş sonuncu - final mərhələsində də uğurla təmsil etdi.**

Gəlin birlikdə böyüyək

**Qeyd edək ki, dünyanın müxtəlif ölkələrindən olan 33 komandanın iştirak etdiyi yarışda Azərbaycan ilk dəfə idi ki, təmsil olunurdu. Bakı Dövlət Universiteti və Xəzər Universitetinin tələbələri olan Nizami İsmayılov, Arif Mövsümzadə, Fidan Rüstəmova və Ülviyyə Rüstəmovadan ibarət "NoObs" komandasının bu mötəbər müsabiqənin "İnnovasiyalar" kateqoriyası üzrə təqdim etdiyi "Spinal" layihəsi yüksək qiymətləndirilərək 2-ci yerə layiq görüldü. Windows Phone 8 əməliyyat sistesmlı telefonlar əsasında və Bluetooth sensorlardan ibarət layihənin məqsədi insanların oturarkən, gəzərkən və ya işlədiyi zaman onurğa sütununun mövqeyi və ona təsir edən neqativ amillərə nəzarət etməkdir. "Microsoft Imagine Cup 2015" kimi nüfuzlu müsabiqədə ikinciliyi əldə etmiş Azərbaycan təmsilçisi "Microsoft" şirkətinin Redmondda yerləşən baş ofisində təntənəli surətdə təltif edildi.**

**Müsabiqədə iştirak etmək üçün orijinal bir oyun düşünərək "Microsoft Windows" oyun platformlarında tətbiq etmək, innovativ proqram layihəsi təqdim etmək və yaxud "Microsoft" texnologiyaları bazası üçün çağdaş dövrün çətin problemlərini çözə bilən əlavə prototipi tərtib etmək lazım idi.**

**Müsabiqənin keçirilməsində əsas məqsəd tələbələrə innovativ düşüncə qabiliyyətinin aşılanması və yerli istedadların üzə çıxarılmasıdır. İntellekt və zəkanın ön plana çıxdığı bu kimi intellektual müsabiqələrə dəstək verilməsi elm və təhsilə, tərəqqi və innovasiyalara hər zaman xüsusi önəm verən "Nar"-ın prioritetidir.**

# Bakıda qadın avtobusdan yıxılıb öldü

**Bakıda dəhşətli hadisə baş verib. "Qafqazinfo" DİN-in saytına istinadən xəbər verir ki, dünən Yasamal rayonu ərazisində Yevlax rayon sakini Taleh Məmmədovun idarə etdiyi "İsuzu" markalı avtobusun qapısı açıq olduğundan sərnişin Ağsu rayon sakini Xəzəngül Sadıxova yıxılıb. Nəticədə X.Sadıxova xəstəxanaya yerləşdirilib və orada ölüb.**

Araşdırma aparılır.

# Qazaxda silahlı insident

**Qazaxda insident baş verib. «Trend»in Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata əsasən, Qazax rayon sakini Şadət Süleymanovu döyərək, daha sonra ov tüfəngindən onun olduğu istiqamətdə havaya atəş açmış həmyerlisi İmran Qafarov tutulub.**

Belə ki, Qazax rayon sakini Ş.Süleymanov Ağstafa Rayon Polis Şöbəsinə (RPŞ) ərizə ilə müraciət edərək iyulun 31-də rayonun "Ceyrançöl" adlanan ərazisində Dağkəsəmən kənd sakini İ.Qafarovun münaqişə zəminində onu döyməsini və ov tüfəngindən onun istiqamətində havaya atəş açmasını bildirib.

RPŞ-nin əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində İ.Qafarov tutulub və ondan "TOZ-16" markalı tüfəng götürülərək müsadirə olunub.

Faktla bağlı araşdırma aparılır.

# Goranboyda dəhşətli qəza: bir polis öldü, ikisi ağır yaralandı

**Goranboyda bir nəfərin ölümü, iki nəfərin xəsarət alması ilə nəticələnən yol qəzası baş verib. APA TV-nin qərb bürosunun məlumatına görə, hadisə ötən gün rayonun Qarqucaq kəndi ərazisində qeydə alınıb.**

Naftalan Rayon Polis Şöbəsinin əməkdaşı, 1987-ci il təvəllüdlü Nəsimi Şakir oğlu Kərimov idarə etdiyi "VAZ-2107" markalı avtomobillə hərəkətdə olarkən idarəetməni itirib, maşın yolun kənarına aşıb.

Nəticədə maşında olan sərnişin, 1986-cı il təvəllüdlü Cahid Nazim oğlu Tağıyev ölüb, sürücü və digər sərnişin, 1987-ci il təvəllüdlü Seymur Dilqəm oğlu Abbasov isə müxtəlif xəsarətlər alaraq xəstəxanaya yerləşdiriliblər.

Onların vəziyyətlərinin orta ağır olduğu bildirilir.

Qeyd edək ki, qəzada ölən və yaralananlar Naftalan Rayon Polis Şöbəsinin əməkdaşlarıdır. Faktla bağlı Goranboy Rayon Prokurorluğunda araşdırma aparılır.

YENİ MÜSAVAT
N 168 (6196) 4 avqust 2015

# “Qarabağ” - “Seltik” oyununa bilet satışına güclü nəzarət edilir

## Klub “qara bazar”ın qarşısını aldı

**Çempionlar Liqasının III təsnifat mərhələsi çərçivəsində baş tutacaq “Qarabağ” (Azərbaycan) - “Seltik” (Şotlandiya) qarşılaşmasına hazırlıqlar davam edir. İlk matçda 0-1 hesabı məğlub olan “Qarabağ” avqustun 5-də cavab oyununa çıxacaq. Tur adlamaq şansı yüksək qiymətləndirilən təmsilçimizin bu mübarizəsi maraqla gözlənilir.**



Matça olan marağın çox olması azarkeşlərin bilet almaq üçün kassalara axın etməsi ilə nəticələnib. Nəzərə alsaq ki, bir neçə il öncəyə kimi nə komandalarımız uğurlu nəticələrlə bizi sevindirə bilirdi, nə də azarkeşlərin klubların matçına getməyə həvəsləri vardı. Amma artıq vəziyyət dəyişib. Klublarımızın matçlarına bilet tapmaq belə çətinləşir. Bu da bəzi “işbaz”ların kefini açır.

Belə ki, futbol matçlarının biletləri “qara bazar”a çıxır və normal qiymətindən 4-5 dəfə baha satılır. “Qarabağ” - “Seltik” matçının da biletləri “qara bazar”a düşüb. Bu haqda çoxlu şikayətlər alan klub rəhbərliyi məsələni araşdırmaq üçün avqustun 2-də kassaların önündə təftiş aparıblar.

**Klub rəhbərliyindən bir nəfər bilet satışına nəzarət etmək üçün kassaların önündə gəzişən zaman onun özünə işbazlardan biri bilet təklif edib. Həmin şəxs ərazidə olan PPX-nə təhvil verilib. Bundan sonra isə klub sərt bəyanat verərək, bilet satışını dayandırıb:** “Qarşılaşmaya olan həddsiz maraq Tofiq Bəhramov adına Respublika stadionunun kassaları önündəki toplaşan izdihamdan bəlli idi. Təəssüf ki, kütləvi maraqdan istifadə edən bəzi işbazlar qeyri-leqal satışla qanqaraldıcı duruma səbəb olublar. Məhz bu səbəbdən, klubumuz tərəfindən kassalar bağlanıb, hüquq-mühafizə orqanlarına müraciət edilib və qeyri-leqal satışla bağlı tədbir görülüb”.



**“Qarabağ” rəhbərliyi vətəndaşlardan xahiş edir ki, qanunsuz bilet alverinin qarşısının alınması üçün mütləq kassalardan bilet alsınlar:** “Kassadan bilet almaqla işbazların alverinə zərbə vuraraq vətəndaşlıq mövqeyini sərgiləmiş olarsınız”.

Görünən budur ki, klub sadəcə bəyanat verməklə kifayətlənməyib. Avqustun 3-də klub yenidən bilet satışını bərpa edib. Bununla yanaşı, kassanın ətrafında da güclü nəzarət edilib. “Qarabağ ordusu” adlı fan- klubun üzvləri üzərində “Köməyə ehtiyac var?” yazılı xüsusi formalar geyiniblər. Ərazi üzrə həm işbazlara nəzarət ediblər, həm də bilet almaq istəyən azarkeşlərə kömək ediblər.

Bir sözlə, azarkeşlərin normal şəkildə bilet almaqları üçün bütün şərait yaradılıb.

**Sırada bilet almaq üçün gözləyən bir neçə azarkeşlə danışdıq. Azər adlı gənc dedi ki, hər zaman bilet satışına nəzarət olmalıdır:** “Mən tələbəyəm. 4-5 dostumla gəlmişəm ki, bilet alım. Bizim gücümüz o qədər də çox deyil ki, 10-20 manatlıq bilet alaq. Əvvəl gəlirdik ki, ucuz bilet qalmayıb. Ya da elə yerlərə bilet var ki, almasan daha yaxşıdır. İndi isə yaxşıdır. Sırada dayanıb, növbəmizi gözləyirik. İstidir, amma dayanmaq olur”.

**“Qarabağ”ın mətbuat xidmətinin rəhbəri Nurlan İbrahimov musavat.com-a biletlərin satışı ilə bağlı açıqlama verib. Onun sözlərinə görə, azarkeşlərin normal şəkildə bilet almaları üçün əllərindən gələni ediblər:** “Gördüyünüz kimi, kassaya və əraziyə ciddi nəzarət edirik. Hər şey edirik ki, biletlər ”qara bazar"a çıxmasın. Biz bilirik ki, işbazlar öz tanışları və digər şəxslərin köməkliyi ilə biletləri alıb satırlar. Misal üçün bilet almağa gələn şəxsə əlavə pul verirlər ki, həmin adam 1 yox, 4 bilet alsın. Bu formadan istifadə edərək, 40-50 hətta 100 bilet alırlar. Biz buna da nəzarət edirik. Çalışırıq ki, azarkeşlər biletləri normal qiymətə ala bilsinlər".

❑ **Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**



# “Qarabağ”a qazon problemi

**UEFA Çempionlar Liqasının üçüncü təsnifat mərhələsi çərçivəsində Azərbaycan çempionu “Qarabağ”la Şotlandiyanın “Seltik” klubu arasında keçiriləcək cavab qarşılaşmasına 1 gün qalıb.**

Xəbərlərə görə, oyunun keçiriləcəyi Tofiq Bəhramov adına Respublika stadionunda ciddi problem yaranıb.

Belə ki, arenanın ot örtüyü sıradan çıxıb. Bir neçə gün öncəyə qədər hər şey qaydasında olsa da, mərkəzi arenanın qazonuna cavabdeh olan şirkətin apardığı kosmetik işlər əks effekt verib. Belə ki, qazonun 30 faizi bərbad vəziyyətdədir. Yaşıl ot örtüyündən demək olar ki, əsər-əlamət qalmayıb. Stadionun hər tərəfində problem var. Ot örtüyü saralıb, bəzi yerlərdə isə artıq torpaq görünür. Belə şəraitdə Ağdam təmsilçisinin oyunu çətin olacaq.

Klubun başqa variantı da yoxdur. Çünki “Qarabağ” UEFA-ya ehtiyat stadion kimi “Bakcell Arena”nı təqdim edib. Bu stadionda isə avqustun 6-da Avropa Liqasının üçüncü təsnifat mərhələsi çərçivəsində “Qəbələ” - “Apollon” (Kipr) matçı keçiriləcək. Bu görə də, sözügedən arenanın iki gün ardıcıl oyun qəbul etməsi mümkünsüzdür. Çünki avqustun 5-də “Qəbələ” ilə “Apollon”un bu stadionda oyun öncəsi son məşqi keçirilməlidir.

**Biz də deyilənləri dəqiqləşdirmək üçün Tofiq Bəhramov stadionuna baş çəkdik. Ot örtüyü sulanır, heç kəsə giriş üçün icazə verilmirdi. “Qarabağ”ın mətbuat xidmətinin rəhbəri Nurlan İbrahimov musavat.com-a açıqlamasında bildirdi ki, stadionun matça qədər tam hazır olması üçün işlər gedir:** “Stadionun 30 faiz hissəsində problem var. Hazırda bunu aradan qaldırmaq üçün işlər görürlər. Söz veriblər ki, əgər stadionda matça qədər məşqlər edilməsə, tam hazır vəziyyətə gətirə biləcəklər. Buna görə də biz məşq etməyəcəyik. "Seltik" klubu isə məcbur məşq edəcək. Bizim üçün problem deyil. Doğma meydanımızda oynayırıq. Ümid edirik ki, bu vacib matça qədər stadionda bərpa işləri tamamlanacaq".

❑ **Məhəmməd TÜRKMƏN**
**Foto müəllifindir**

# “Arılar öz balını yeməsələr ölərlər...”

## Arıçı Məmməd Məmmədov:

## “Balı 500 il saxlamaq mümkündür”



**Bir çoxumuz əsl bal tapmaq üçün adətən rayonlara üz tuturuq. Maraqlıdır, bəs təmiz bal hansı bala deyilir? Həm bu suala cavab tapmaq, həm də ümumilikdə arıçıların fəaliyyəti, günümüzdə balı necə əldə etdiklərini öyrənmək üçün Şəki şəhərində ömrünün yarıdan çoxunu bu işə həsr edən arıçı Məmməd Məmmədovun evinə üz tutduq.**

Arıçı Məmməd dayı arılarla xüsusi həssaslıqla rəftar edirdi. Bizimlə söhbətdə o, balın heç vaxt köhnəlmədiyini bildirdi. Hazırda əlində 1990-cı ilin balının olduğunu deyən arıçı düzgün hazırlanan balın 5 əsrə qədər qala biləcəyini dedi: “Balı 3 kiloluq balona yığırıq. Beləcə bal orada öz donuna girir. Əgər o donuna girməsə, qalınlayır və rəngi ağ olur. Həm də bal dona girməsə qıcqırar. Dona girmiş balın rəngi isə sarı olur və bu bal 5 əsrə qədər qala bilir. Hazırda məndə 25 ilin balı var. İstəyən olanda həmin balı isidib verirəm. Çox vaxt onu məndən dərman kimi alırlar”.



**Arıçılıq sənətinin ona atasından miras qaldığını deyən M.Məmmədov işinə xüsusi sevgi ilə yanaşır:** “Həmişə arzum olub ki, arı saxlayım. Mən də arıçılığa atam kimi iki qutu arı almaqla başlamışam. Mən arının qutusunu, çərçivələrini özüm düzəldirəm. Hazırda 30 yeşik arı saxlaya bilirəm. Əsasən bir yeşiyin ikinci və üçüncü korpusunun balı dadlı olur. Bir çərçivə 3 kilo 700 qrama yaxın bal verir. Amma elə yeşiklərim də var ki, ora yalnız iki və üçüncü mərtəbələrin balını götürürəm. Əgər arı bir çərçivəyə 2-3 dəfə toxum qoyarsa çərçivə qaralır. Mən balı çərçivədən süzəndən sonra qara olan tərəfi qalır və onu yeşiyə qoyanda arı özü onu yeyib qurudur. Qara çərçivənin balı yaxşı olmur. Arılar əsasən aprel ayından etibarən işə başlayırlar. Amma soyuqda işləmirlər. Məsələn, mənim 30 yeşik arımdan yalnız 10 yeşiyi güclü bal verə bildi. Qutunu açıb görəndə ki, arılar şişib, deməli, ikinci çərçivəni qoymaq lazımdır. Əgər ikinci çərçivə qoyulmasa, sıxlıq yaranar və arılar veçə verər. Veçə də verəndə arı həyətdəki hansısa ağaca qonur və 3-4 saat yiyəsini gözləyir. Əgər yiyəsi 3-4 saata kimi gəlməsə, çıxıb meşəyə gedir. Arılar öz aralarında iş bölgüsü edirlər. Əsas başçı ana arı sayılır. O yeşikdən çölə çıxmır. Yalnızca 5 ildən bir mayalanmaya çıxır. İşçi arılar ana arının toxumu zəif tökdüyünü görəndə ona yemək gətirirlər. Ancaq buna baxmayaraq, ana arı yenə də zəif toxum tökməyə davam edirsə, işçi arılar onu öldürüb yeşikdən çölə atırlar və toxumdan yeni ana arı yaradırlar. İşçi arıların ömrü 40-45 gün, ana arının ömrü isə arı südü yediyinə görə 7-8 il olur. Payız arılarının ömrü isə 6-7 aydır. Əgər ana arı ölərsə, ailədə qanunsuzluq hökm sürər, arılar işləməyə getməz, yığdıqları balı yeyər və bir-birləri arasında ölümcül müharibəyə başlayarlar. Ana arı ölərkən arılar 3 gün matəm edirlər. Onlar bal yığmağa getmir və bütün günü yuvada gəzişirlər. Arılar qışda öz balını yeyir. Arılar öz balını yeməsələr ölərlər”.

**M.Məmmədovun sözlərinə görə, arı nə qədər çox olarsa məhsul da o qədər çox olur:** “Məhsul az olanda erkək arılar qutudan çıxarılır. Məhsulun təbiətdən az gəldiyini görəndə ana arı işçi arılara erkəkləri öldürməyə göstəriş verir. Çünki onlar yalnızca yeyib istilik verirlər. Ancaq bal çox olanda onlara dəymirlər. Hər yeşiyin öz arısı var. Başqa yeşikdən bir arı digər yeşikdə yaxşı bal olduğunu görsə, öz yeşiyindəki arılarla gəlib ora hücum edir. Hansı güclü olsa, bütün balı aparıb gedir. Əgər hücum edilən yeşiyin arıları dalaşmayıb təslim olsa, onları öldürmürlər. Sadəcə olaraq, balı alıb gedirlər. Arıların hər birinin öz iyi olur. Bu iy vasitəsilə onlar yeşiyə girənin özlərinin və ya yad arı olduğunu ayırd edə bilirlər. Şanın təmizliyi arıların və sürfələrin sağlamlığı baxımından çox əhəmiyyətlidir. Arılar şanda gərəksiz gördükləri hər şeyi çölə daşıyırlar, daşıya bilməyəcəkləri qədər böyük olan və şana çöldən girən böcəkləri də öldürərlər və propolis ilə örtərək bir cür mumiyalama əməliyyatı edərlər. Propolisin xüsusiyyəti içində bakteriyaların daxil olmasına imkan verməməsidir. Yəni mumiyalama işi üçün ideal maddədir. Arılar şanın girişində gözətçilik edərlər. Gözətçi olan arılar şan qapısında keşik tutaraq dəvətsiz qonaqların içəri girməsinin qarşısını alırlar”.

Məmməd dayı ilə arı qutularına yaxınlaşırıq. O bizi həm ana arı, həm də işçi arılarla tanış etdi. Ana arı digərlərinə nisbətən böyük idi. Arıçının dediyinə görə, bəzən elə vaxtlar olub ki, xüsusi geyimdə olmasına baxmayaq, onu 5-6 arı eyni vaxtda sancıb.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 168 (6196) 4 avqust 2015



# Rəngli şamlar ovqata necə təsiri edir?

**Evinizi bəzəyən şamların hər rəngi fərqli bir təsir yaradır. Evlərdə, balkon və bağlarda dekorasiyası və gözəl görünüşü üçün istifadə etdiyimiz şamlar, insanların ruh halına birbaşa təsir edir. Fərqli görünüşlərdə, rənglərdə və ölçülərdə olan şamlar, evlərdə müsbət enerjinin də birbaşa qaynağıdır.**

**Qırmızı:** fiziki fəaliyyətə təşviq edir və əvvəlcədən hər hansı bir şeydən ehtiyat hissi yaradır.

**Narıncı:** olduğu otağa, mühitə sevinc və coşqu gətirir, ilham hissini oyadır.

**Darçın:** otaqdakı digər bəzək alətlərinin bir-biri ilə uyğunlaşma və sabitliyinə təmin edir.

**Sarı:** fikri bir yerə cəmləməyə kömək edir.

**Yaşıl:** tarazlığı və uyğunluğu təmin edir, emosiyalara hakim olmağı, təhlükəsizlik və qorumanı təmin edir.

**Mavi:** sakitlik gətirir.

**Bənövşəyi:** meditasiya üçün ideal sakitləşdirici vasitədir və eyni zamanda psixoloji xüsusiyyətə malikdir.

**Ağ:** ruhun təmizlənməsinə kömək edir, eyni zamanda rahatlıq gətirir.

**Qızılı:** bolluq və anlayış anlamına gəlir.

**Gümüşü:** dəyişmə, yenilik və öyrənməyi təşviq edən bir balans rəngidir.

# Barmağını kasib dondurmaya qoydu

**İngiltərənin Devon şəhərində bir kişinin barmağı maşının şüşəsinin arasında qalaraq qopub. Ruby Duke adlı dondurmaçı qopan barmağını bir dondurma qabına qoyaraq, onun soyuq qalmasına nail olub.**




Qısa müddət sonra xəstəxanada kişinin barmağı yerinə tikilib. Bir neçə gün sonra barmağını adi qaydada işlədə biləcək Duke "o an, sadəcə, edə biləcəyimi etdim, ayrı bir şey haqda düşünmək üçün vaxtım yox idi" deyib.

Məlumat üçün bildirək ki, həkimlər qopan orqanların zərər görməməsi üçün nəmli bir bezə bükülüb buzlu su ilə dolu ilə qaba qoyulmasını vacib sayırlar. Orqanı qopan adamın qanaxmasının dayandırılması da olduqca önəmli məsələdir.

# Üzüm və qırmızı şərab ömrü uzadır?

**Spirtli içkini kiçik dozalarda qəbul etmək olarmı? Bəziləri hesab edir ki, spirtli içkilərin zərəri yoxdur, əksinə, xeyri var. Lakin mütəxəssislər yekun və vahid qərara gəlməyiblər. "Nauka i Jizn" ("Elm və həyat") jurnalına istinadən xəbər verir ki, alkoqol ətrafında gedən elmi diskussiyalar səngimək bilmir.**

Spirtli içkilər xeyirdir yoxsa ziyan? Bir tərəfdən etanolun ziyanından bəhs edən tədqiqatlardan böyük kitabxana düzəltmək olar. Digər tərəfdən isə qırmızı şərabı qəbul edən və məhz onun sayəsində uzun ömür sürdüklərini iddia edən insanlar da az deyil. Bir neçə il əvvəl bioloqlar şərabın hansı şəkildə xeyirli olduğunu aşkar edib. Söhbət "əbədi cavanlıq mənbəyi" adlandırılan resveratroldan gedir. Alimlər iddia edir ki, resveratrol qocalma prosesini xeyli ləngidir. O, bir çox ərzaqlarda olsa da, daha çox üzüm və qırmızı şərabdadır.





# Yuxuda onu döyən qohumunu güllələdi

**Türkiyənin Bitlis vilayətindəki Tatvan rayonunda N.A. adlı şəxs qohumu Əbdürrəhman Yulçanı güllələyib. Mil-li.az AHT-yə istinadən bildirir ki, N.A.-nın polisdə verdiyi ifadəyə görə, Ə.Yulça onu yuxuda döydüyü üçün qisas almaq qərarına gəlib.**

Olay dünən Tatvanın Cumhuriyet Caddesindəki Reşadiyədə yaşanıb. Şizofrenik olduğu deyilən N.A. küçədə Əbdürrəhman Yulça ilə qarşılaşıb. N.A. qohumunu görən kimi "Sən məni niyə vurdun" bağırıb və Əbdürrəhman Yulçaya atəş açıb. Qohumların və küçədəki şəxslərin araya girməsi nəticəsində ayaqlarından yaralanmış Yulça ölümdən qurtulub.




**QOÇ** - Mənfi enerjili Ayın sizin Zodiaka daxil olması ümumi işlərinizdə passivlik yaradacaq. Ovqatınızın aşağı düşməməsi üçün qeyi-adi hərəkətlərə yol verməyin. Səfərə də çıxmaq olmaz.

**BUĞA** - Bu təqvimdə əsas enerjinizi fəaliyyət istiqamətinə həsr etməlisiniz. Çünki ulduzların düzümü əməkdaşlıq zəminində, eləcə də yeni işlərə başlamaqda uğurlarınızı artıracaq.

**ƏKİZLƏR** - Yaxşı olar ki, rahatlığınızı maksimum tərzdə təmin edəsiniz. Qonaq getmək, ürəyinizə yaxın adamları evinizə dəvət etmək sizə xüsusi zövq verəcək. Amma bir az qənaətcil olmağa çalışın.

**XƏRÇƏNG** - Əgər orqanizminizdə mövcud olan nasazlığı aradan qaldırmaq istəyirsinizsə, otaq şəraitində az olun. İqlimin qaynarlığını nəzərə alıb təbiət qoynunda, dostlar arasında olmağa çalışın.

**ŞİR** - Uğurlu perspektivdən xəbər verən olaylar mümkündür. İştirakçısı olduğunuz sövdələşmələrdən asılı olaraq yaxın gələcək üçün şəxsi işlərinizi maksimal dərəcədə təmin edə bilərsiniz.

**QIZ** - Çoxdandır ki, iş başınızı qatdığından ülvi hisslərdən uzaq düşmüsünüz. Məhz bu səbəbdəndir ki, uğurlarınız nə qədər çox olsa da, daxili narahatçılığınız azalmır. Bir az mətin olun.

**TƏRƏZİ** - Daxilinizdə cövlan edən narahatçılıq mələklə şeytan arasında qalmağınıza rəvac verə bilər. Odur ki, iradənizi toplayıb Tanrı yolunu tutun. Dinə zidd hərəkətlərə qətiyyən yol verməyin.

**ƏQRƏB** - Yaxşı bilirsiniz ki, sizi hövsələdən çıxaran amillər çoxdur. Bu fəsadlardan qurtulmaq istəyirsinizsə, gün ərzində ətraf aləmdən təcrid olunun. Axşamüstü sürprizlə rastlaşma ehtimalınız var.

**OXATAN** - Əgər sağlıq durumunuz imkan verirsə, bu gün nəzərdə tutduğunuz işlərin əksəriyyətini həyata keçirəcəksiniz. Axşamsa maraqlı məclislərdə iştirakınız gözlənilir. Dəvətlərdən yayınmayın.

**OĞLAQ** - Qətiyyən dedi-qoduya aludə olmayın. Əks təqdirdə, başağrısına mübtəla olacaqsınız. Yaxşı olar ki, istənilən məsələdə qərarları özünüz verəsiniz. Yalnız bu halda uğurlar mümkündür.

**SUTÖKƏN** - Hiss olunur ki, çoxdan bəri nəzərdə tutduğunuz hansısa planınız reallığa yaxınlaşmır. Amma narahat olmağa dəymez. Çünki nahardan sonra Göy qübbəsi işlərinizdə dönüş yaradacaq.

**BALIQLAR** - Prinsip etibarilə düşərli gün hesab etmək olar. Ələlxüsus da saat 12-16 arası əlinizə geniş imkanlar düşəcək. Gün ərzində sədaqətli insanlarla rastlaşma ehtimalınız da böyükdür.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# İflic xəstələrinə şok ümid



**Amerikanın Stanford Universitetinin araşdırmaçıları beyin dalğalarından istifadə edərək əlil arabalarına nəzarət etməyə kömək edən sistem hazırlayıblar. Bu sistem iflic xəstələrinə kömək edəcək.**

Sistem bir ekrandakı göstəricinin beyin dalğalarını oxuması nəticəsində çalışır. Meymunlar üzərində gerçəkləşdirilən testlərin müsbət nəticə göstərdiyini deyən alimlər "hazırladığımız sistem iflic xəstələrinin müalicəsi üçün olduqca önəmlidir" deyə açıqlama verib.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300